# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 yanvar
2026-cı il,
çərşənbə axşamı
№ 011 (7078)
Qiymәti
60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Çətin və ali missiyanın dəyəri



## İlham Əliyev 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb

Bax səh. 2



## İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrədə səfərdədir



Bax səh. 2

## Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib



Bax səh. 2

### Humanitar diplomatiya nümunəsi

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfər edib. Bu səfər iki ölkə arasında mədəni və elmi əməkdaşlığın daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində həyata keçirilən görüşlər və müzakirələr qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə, eləcə də ortaq layihələrin təşviqinə zəmin yaradır.

Səfərin əsas məqsədlərindən biri Azərbaycan və Efiopiya...

Bax səh. 3

### Pan-Avropa enerji təchizatçısı

Azərbaycan etibarlı və sadiq qaz təchizatçısı kimi həcm və coğrafiya baxımından yanacaq ixracını artırmaqdadır. Respublikamızın yürütdüyü enerji siyasəti birbaşa yaxın tərəfdaşlıq və həmrəylik konseptinə əsaslandığından enerji sıxıntısı ilə üzləşən ölkələrə dəstək göstərilməsi xüsusi diqqətdə saxlanılır. Bu, ötən illər ərzində qonşu Gürcüstanın, Ukrayna, Belarus və digər dövlətlərin timsalında özünü təsdiqləyib. Ölkəmizin şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı statusu bir çox ölkələrin enerji təhlükəsizliyində mühüm...

Bax səh. 4

### Tarixi təzyiqdən müasir repressiyalara...

Müasir dünyada ayrı-seçkilik və dini-etnik təzyiqlər hələ də qlobal problemlər sırasında qalmaqdadır. Xüsusilə kolonializm siyasətinin mirası olan dövlətlərdə bu yanaşmalar yeni formalarda davam edir. Bir zamanlar "sivilizasiya missiyası" adı altında xalqların hüquqlarını tapdalayan kolonial güclər bu gün də insan haqları mövzusunda selektiv mövqe nümayiş etdirirlər. Azərbaycan isə beynəlxalq platformalarda kolonializmin bütün formalarına qarşı açıq və prinsipial mövqe...

Bax səh. 6

### Avropa Parlamenti Aİ ilə ABŞ arasında ticarət sazişinin ratifikasiyasını dayandırır

Avropa Parlamenti ABŞ Prezidenti Donald Trampın təhdidləri fonunda Avropa İttifaqı-ABŞ ticarət sazişinin planlaşdırılan ratifikasiyasını dayandırır. Bu barədə Avropa Parlamentinin aparıcı fraksiyası olan Avropa Xalq Partiyasının rəhbəri Manfred Veber "ZDF" televiziya kanalına müsahibəsində bildirib. Veber qeyd edib ki, verdiyimiz...

Bax səh. 6

### Azərbaycanın qlobal şəhərsalma gündəliyində liderliyi

Azərbaycanı qlobal dialoq məkanı kimi səciyyələndirmək mümkündür. Son illərdə ölkəmizin bir sıra beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi bu qənaəti möhkəmləndirir. 2024-cü ildə respublikamızda BMT-nin ən mühüm və ən böyük tədbirlərindən biri olan iqlim konfransı - COP29 böyük uğurla baş tutdu. Cari ildə isə ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbirin keçirilməsi gözlənilir. Söhbət 2026-cı...

Bax səh. 4

## Avropa ölkələri Qrenlandiyada hərbi mövcudluğunu artırır



Bax səh. 7

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib



Yanvarın 18-də Prezident İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

20 Yanvar hadisələri Azərbaycan xalqının tarixinə həm faciəli, kədərli, həm də qəhrəmanlıq, rəşadət səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. 36 il əvvəl doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan Azərbaycanın mərd övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə tarixi səhifə yazdılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur.

Qanlı 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı məsələ ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin səhəri günü - 1990-cı il yanvarın 21-də Ulu Öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, bu qırğını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi. Dahi şəxsiyyət bu hadisəni hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan edərək, onun törədilməsini kobud siyasi səhv kimi qiymətləndirdi. Xalqımızın başına gətirilən müsibəti dünyaya çatdıran Ümummilli Lider 20 Yanvar faciəsinin Azərbaycanın ovaxtkı rəhbərlərinin xalqımıza qarşı xəyanəti nəticəsində baş verdiyini və bunun cinayət olduğunu dəfələrlə bəyan edib. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha nümayiş etdirib.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul olundu. Bu qərar Ulu Öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü ildə 20 Yanvar hadisələrinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərinin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Onların pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı qanunvericilik bazası yaradılıb.

Ulu Öndərin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi və suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı qürurla dalğalanır. Hazırda Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri gedir, Böyük Qayıdış Proqramı uğurla icra olunur.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığını sübut edir.

# İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrədə səfərdədir







Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün yanvarın 19-da İsveçrə Konfederasiyasına səfərə gəlib. Dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı Sürix şəhərinin beynəlxalq hava limanında rəsmi şəxslər qarşılayıblar.

Dövlətimizin başçısı Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə görüşüb.

Prezident İlham Əliyev Azərbaycanın makroiqtisadi sabitliyinə və fiskal intizamına, həmçinin uzunmüddətli inkişaf strategiyasına toxunaraq, bu istiqamətdə həyata keçirilən siyasətin ölkəmizin beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş kimi mövqeyinin daha da möhkəmlənməsinə müsbət təsir göstərdiyini bildirib. Vurğulayıb ki, dünyanın beynəlxalq reytinq agentlikləri ölkəmizin kredit reytinqini daha da artıraraq, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırıb.

Rəhbərlik etdiyi şirkətin qlobal fəaliyyət coğrafiyası və institusional investorlarla iş təcrübəsi barədə danışan Andre Esteves "BTG Pactual"ın müxtəlif regionlarda tətbiq etdiyi investisiya yanaşmaları barədə məlumat verib. Qeyd olunub ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında son dövrlərdə mümkün əməkdaşlıq istiqamətləri və strateji prioritetlər ətrafında ilkin müzakirələr aparılır, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoq davam etdirilir.

Söhbət zamanı qlobal iqtisadi proseslər, beynəlxalq maliyyə bazarlarında mövcud vəziyyət və institusional investorların müxtəlif regionlara yanaşması, həmçinin inkişaf etməkdə olan bazarlarda investisiya mühiti, uzunmüddətli investisiya yanaşmaları və qarşılıqlı investisiya layihələri ilə bağlı fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev yanvarın 19-da Davosda "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm ilə görüşüb. Söhbət zamanı bu şirkətin ölkəmizdə bərpaolunan enerji, xüsusilə külək enerjisi sahəsində fəaliyyətinə toxunulu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. Azərbaycan ilə "Vestas Wind Systems" şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Davosda Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus ilə də görüşüb. Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi və ölkəmizin təşkilatın dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi layihələrə dəstəyi qeyd edilib.

*Mübariz FEYİZLİ*

# Dinc insanlara qarşı amansız hərbi cinayət

## 20 Yanvar faciəsindən 36 il ötür

Ötən əsrin doxsanıncı illərinin əvvəlində XX yüzillikdə ikinci dəfə müstəqilliyini bəyan etməsi Azərbaycan xalqının tarixi nailiyyətidir. Müstəqilliyə, öz taleyimizin sahibi olmağa gedən yolumuz isə asan olmayıb. Bədxahlarımız bizə maneə olmaq üçün dəridən-qabıqdan çıxıblar, min cür məkrli planlar qurublar. Bu yolda faciələrlə üzləşmişik, şəhidlər vermişik. Həmin faciələrdən birini də tarixin bu günündə - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədə yaşamışıq. O məşum gecədə Bakının küçələri şəhidlərin qanı ilə sulandı, qərənfillər ağladı. Artıq qanlı 20 Yanvar faciəsindən bizi 36 il ayırır. Ancaq 20 Yanvar tariximizin yalnız kədər deyil, həm də ləyaqət və milli qürur səhifəsidir.



**Generalların xüsusi qəddarlıqla həyata keçirdikləri əməliyyat**

İmperiya qüvvələrinin Bakıda törətdikləri məlum qırğınları sadəcə bir gecənin faciəsi kimi dəyərləndirmək doğru olmazdı.  1990-cı il yanvarın ortalarında SSRİ müdafiə və daxili işlər nazirliklərinin, habelə başqa xüsusi təyinatlı hərbi birləşmələrin 66 min nəfərdən çox əsgər və zabiti Bakı şəhərinə gətirilərək Qala və "Nasoslu" aerodromlarında, Respublika stadionunda, Salyan qışlasında (kazarmasında) yerləşdirilmişdi. O da təkzibolunmaz faktdır ki, Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni əsilli zabit və əsgərlər, həmçinin hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.

Bütün bunlar məkrli mətləblərdən xəbər verirdi.  "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il Beynəlxalq Aktın birinci bəndinə əsasən, fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə müvafiq fərman imzalandığı andan bu barədə əhaliyə rəsmi xəbərdarlıq edilməlidir. Lakin Bakıda fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridilib. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçiririblər. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıblar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 20 yanvar 1990-cı il səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyətin tətbiq edildiyi barədə rəsmi məlumatı efirə verib. Halbuki yanvarın 20-də saat 00-dan başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilib, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində daha 21 nəfər öldürülüb.

Bakı ilə paralel şəkildə, respublikanın bölgələrində də qırğınlar törədilib. Ümumilikdə Bakıda və respublikanın rayonlarında 147 nəfər qətlə yetirilib, 744 nəfər yaralanıb, 841 nəfər isə həbs olunub. Bu, dinc insanlara qarşı törədilən qanlı hərbi cinayət idi.

**Heydər Əliyev xalqı tək qoymadı**

Həmin dövrdə faciə yaşayan Azərbaycan tək qalmışdı. Keçmiş ittifaq rəhbərliyi yerli kosmopolit məmurlarla birlikdə respublikamızın ətrafında, sözün əsil mənasında, informasiya çəpəri çəkmişdi.

Belə ağır məqamda o dövrdə keçmiş ittifaqdakı bütün vəzifələrindən uzaqlaşdırılsa da, Moskvada yaşayan Heydər Əliyev bir milli mücadilə nümunəsi ortaya qoydu. O, faciənin ertəsi günü hədə-qorxulara, təhdidlərə məhəl qoymayaraq ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib və Bakıda baş verənlərlə bağlı informasiya blokadasını yarıb, bütün dünyaya bir sıra mesajlarını çatdırıb. Doğma xalqı ilə bir yerdə olduğunu bildirən Heydər Əliyev Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya yabançı, humanizmə və respublikada elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd addım kimi dəyərləndirib və  günahkarların  cəzalandırılmasını tələb edib.

**Faciəyə hüquqi-siyasi qiymət verilməsi**

Müstəqilliyimizin ilk illərində Azərbaycanın siyasi hakimiyyətində müxtəlif qüvvələr təmsil olunsalar da, onların heç biri 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verməyib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə insanları meydanlara səsləyən "liderlər"in bir çoxu 1992-ci ilin yazında respublikada qeyri-qanuni yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarında təmsil olunurdular. Təəccüblüdür ki, onlar da 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməsi təşəbbüsü ilə çıxış etməyiblər.

Yalnız Heydər Əliyevin səyləri sayəsində 20 Yanvar faciəsi özünün hüquqi-siyasi qiymətini alıb. Onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verib. Bununla bağlı Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərar qəbul edib. Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı Heydər Əliyev bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədə  ittifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilib. Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan sonra Onun qətiyyətli siyasi iradəsinə uyğun olaraq 20 Yanvar faciəsi ilə bağlı mühüm sənədlər imzalanıb. O cümlədən sabiq Prezident Heydər Əliyev 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı fərman verib. Fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında Heydər Əliyev Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırıb. Heydər Əliyevin bu istiqamətdə gərgin əməyinin nəticəsi kimi, 1994-cü il mart ayının 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edilib. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə siyasi-hüquqi qiymət verilib.



**Tariximizdə əbədi qalacaq qələbələr**

Bu gün Vətənin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu şaddır. Havadarlarının dəstəyinə arxalanan Ermənistan ötən əsrin doxsanıncı illərinin əvvəllərindən başladığı işğalçılıq siyasətini üç onillik ərzində davam etdirməyə nail olub, ərazilərimizin 20 faizi işğal altında qalıb. Xalqımız bu işğal faktı ilə barışa bilməzdi və barışmadı da. 2003-cü ildə xalqın etimadını qazanaraq  dövlət başçısı seçilən İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı ərazilərimizin işğaldan azad olunmasına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və suverenliyimizin bərpası. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü sayəsində Zəfərlə sona çatdı. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu bütünlüklə kapitulyasiyaya məruz qoydu. Müharibənin nəticələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edildi.

2023-cü il sentyabrın 19-da başlayan antiterror tədbirləri də Azərbaycan Ordusunun gücünün və hərbiçilərimizin peşəkarlığının növbəti təzahürü oldu. Cəmi bir gün davam edən antiterror tədbirlərinin nəticəsi olaraq separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. 23 saatlıq antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində suverenliyimiz tam bərpa edildi. Hazırda Xankəndi və Xocalı da daxil olmaqla ölkəmizin bütün ərazisində üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Şanlı zəfərlərimiz tariximizdə əbədi qalacaq!

# Çətin və ali missiyanın dəyəri

## İlham Əliyev 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qaliblərinin adlarını açıqlayıb. Mükafata layiq görülənlər arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də var. Bu barədə Şeyx Zayed Fondunun rəsmi internet səhifəsində məlumat verilib. Məlumatda qeyd edilir ki, bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

2026-cı ilin mükafatçıları dialoq və birgəyaşayış sahəsində tanınmış şəxslər və mütəxəssislərdən ibarət müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən seçilib.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər komitəsinin üzvü və Mükafatın baş katibi Məhəmməd Əbdülsəlam deyib: "Bu il "Zayed İnsan Qardaşlığı Mükafatı" komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçib. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi sahəsindəki missiyasını və məqsədlərini özündə təcəssüm etdirir. Bu, qlobal sülhün irəliləməsində mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur".

Müasir dünya nizamında hərbi qələbəni dayanıqlı sülhə çevirmək hər bir liderin qarşısında duran çətin və ali missiyadır. Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən layiq görüldüyü "Zayed İnsan Qardaşlığı Mükafatı" məhz bu missiyanın qlobal səviyyədə təqdir olunmasının bariz nümunəsidir. Bu mükafat sadəcə diplomatik uğurun deyil, həm də Azərbaycanın sülh gündəliyinin dünya tərəfindən qəbul edilməsinin təsdiqidir.

**Şeyx Zayed Fondu: Humanizm və qlobal həmrəylik rəmzi**

Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsə Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər var.

Onu da qeyd edək ki, Fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi isə Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir.

**Müharibədə Qalib Lider, sülhdə Qalib Dövlət**

Tarix sübut edir ki, güclü sərkərdələr çoxdur, lakin onlardan yalnız bir neçəsi qazandığı hərbi zəfəri siyasi sülhə çevirməyi bacarıb. Azərbaycanın 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror tədbirlərində əldə etdiyi mütləq Qələbə beynəlxalq hüququn bərpası idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiya göstərdi ki, döyüş meydanında qazanılan uğur, həm də uzaqgörən diplomatik manevrlərlə möhkəmləndirilməlidir. Azərbaycan sadəcə torpaqlarını azad etmədi, həm də regionda yeni geosiyasi reallıq yaradaraq uzunmüddətli sülhün təməlini qoydu. Bu prosesdə hərbi gücün beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsinə şərait yaratdı.

Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı quruculuq işləri və "Böyük Qayıdış" Proqramı hərbi Qələbənin necə mülki tərəqqiyə çevrilməsinin ən bariz nümunəsidir. Beləliklə, Azərbaycan dövləti sübut etdi ki, əsl sərkərdəlik məharəti yalnız müharibədə qalib gəlmək deyil, həm də sülh yaratmaq və gələcək nəsillər üçün sabitlik təmin etməkdədir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə münaqişədən sonrakı dövrdə "məğlub tərəfi əzmək" deyil, "regionun inkişafı üçün sülh təklif etmək" yolunu seçdi. Bu, qalib tərəfin nümayiş etdirdiyi ən böyük siyasi iradə və humanizm nümunəsidir.

Bakının təklif etdiyi prinsiplər üzərində qurulan sülh gündəmi bölgədəki bütün xalqların rifahına xidmət edən yeni iqtisadi modelin əsasını qoyur. Dağıdıcı müharibə ritorikasını quruculuq və bərpa prosesi ilə əvəz edən Azərbaycan Cənubi Qafqazın nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün real imkanlar yaradır. Bu yanaşma dövlətimizin yalnız hərbi qüdrətini deyil, həm də strateji baxışını və beynəlxalq təhlükəsizliyə sadiqliyini bütün dünyaya nümayiş etdirir. Beləliklə, sülh təşəbbüsləri regionda nifrət səhifəsini bağlayaraq, qarşılıqlı hörmətə əsaslanan yeni dövrün qapılarını açır.

**Revanşizmə qarşı qətiyyətli mövqe**

Müstəqil siyasət yürüdən Azərbaycan bölgədə sabitliyin əsas təminatçısı kimi strateji hədəflərinə doğru inamla irəliləməkdə davam edir. Lakin Azərbaycanın sülh əlini uzatmasına baxmayaraq, regionda hələ də Ermənistanı revanşizmə sürükləmək istəyən qüvvələr mövcuddur. Xarici dairələrin Ermənistanı silahlandırmaq və regionu yeni qarşıdurmaya sövq etmək cəhdləri bölgədəki kövrək sülhü təhdid edir. Bu cür təzyiqlər və süni gərginlik yaratmaq cəhdləri Azərbaycanın sarsılmaz iradəsi və hərbi hazırlığı qarşısında hər zaman iflasa məhkumdur. Rəsmi Bakı dəfələrlə qeyd edib ki, Ermənistan öz gələcəyini xarici qüvvələrin maraqlarına qurban verməməlidir, sülh müqaviləsini imzalayaraq regional əməkdaşlığa qoşulmaq onun üçün yeganə çıxış yoludur.

Prezident İlham Əliyevin prinsipial və qətiyyətli siyasəti bu kimi cəhdlərin qarşısında keçilməz bir səddə çevrilib - Azərbaycan öz suverenliyini tam bərpa edərək diktə edən tərəf statusunu qoruyub. Həmçinin regionda "boz zonalar"a və separatizm qalıqlarına son qoyulub. Bütün təzyiqlərə baxmayaraq, milli maraqlar hər şeydən üstün tutulub.

**Vaşinqton görüşü: İllərin münaqişəsinə tarixi son**

Sülh prosesinin ən mühüm mərhələlərindən biri kimi, 2025-ci ilin avqust ayında keçirilən Vaşinqton görüşünü qeyd etmək olar. Bu görüşdə məsələyə faktiki olaraq nöqtə qoyulması Azərbaycanın iradəsinin dünya gücləri tərəfindən qəbul edildiyini göstərdi. Bu, sadəcə bir sülh sazişinin paraflanması deyil, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam və şərtsiz tanıması, revanşist xülyalardan rəsmən imtina etməsi demək idi.

Bu diplomatik qələbə göstərdi ki, Azərbaycanın hərbi sahədəki qətiyyəti artıq beynəlxalq hüquqi sənədlərdə öz əksini tapan mütləq reallığa çevrilib. Vaşinqtonda əldə olunan razılaşma Cənubi Qafqazda kənar manipulyasiyaların qarşısını alaraq, birbaşa dialoqun və qarşılıqlı etimadın ən yüksək zirvəsi hesab olunur. Ermənistanın bu rəsmi öhdəliyi regionun iqtisadi dirçəlişi üçün illərdir gözlənilən maneələri aradan qaldırdı və genişmiqyaslı əməkdaşlıq üçün hüquqi zəmin yaratdı. Beləliklə, dünya birliyi Azərbaycanın haqlı mövqeyini və yeni regional düzənin qurucusu olduğunu bir daha təsdiqləmiş oldu.

**Münaqişənin həllində Azərbaycan modeli**

Azərbaycanın mütləq Qələbəsi və ondan sonrakı sülh quruculuğu prosesi dünya üçün nümunəvi təcrübədir. Beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiyini Azərbaycan təkbaşına, həm döyüş meydanında, həm də diplomatik masada həll etdi.

- Hərbi güclə beynəlxalq hüququn uzlaşdırılması;
- İşğaldan azad edilmiş ərazilərin sürətli bərpası ("Böyük Qayıdış");
- Qonşu dövlətlərlə balanslı və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq.

Azərbaycanın sadalanan bu istiqamətlərdə əldə etdiyi təcrübə göstərdi ki, beynəlxalq hüququn dondurulmuş münaqişələr qarşısındakı acizliyi yalnız milli iradə və güclü dövlət strategiyası ilə aradan qaldırıla bilər. Azərbaycanın tətbiq etdiyi model həm hərbi əməliyyatların dəqiqliyi, həm də mülki əhalinin təhlükəsizliyinin qorunması baxımından müasir hərb tarixinə yeni standart gətirdi. Ölkəmiz sübut etdi ki, ədalətli sülhə gedən yol status-kvonu qəbul etməkdən deyil, işğala son qoyaraq əsl legitimliyi bərpa etməkdən keçir. Beləliklə, Bakının nümayiş etdirdiyi qətiyyət dünyada suverenlik və ərazi bütövlüyü uğrunda mübarizə aparan digər dövlətlər üçün mənəvi və siyasi mayaka çevrildi.

Dövlətimizin başçısının layiq görüldüyü Şeyx Zayed Fondunun mükafatı bu böyük iradənin, ədalətli sülhün və Azərbaycanın seçdiyi əməkdaşlıq yolunun rəmzidir. Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində Cənubi Qafqaz artıq münaqişə zonası deyil, qlobal sabitlik, logistika və enerji mərkəzinə çevrilməkdədir.

Eyni zamanda, bu nüfuzlu mükafat Azərbaycanın humanist addımlarına və sülh quruculuğuna verilən yüksək qiymətin təzahürüdür. Ölkəmiz artıq yalnız enerji resursları ilə deyil, həm də regionda təhlükəsizliyin əsas dayağı kimi qlobal miqyasda nüfuz qazanıb. Zəngəzur dəhlizi kimi strateji layihələrin reallaşması ilə Azərbaycanın beynəlxalq tranzit xəritəsindəki yeri daha da möhkəmlənir və bu, bütün Avrasiya regionu üçün yeni inkişaf imkanları vəd edir. Beləliklə, qazanılan hər bir uğur Azərbaycanın suveren gücünün və sülhsevər siyasətinin sarsılmazlığını bir daha təsdiq edir.

# Humanitar diplomatiya nümunəsi







## Leyla Əliyevanın Efiopiyaya səfəri ölkələr arasında mədəni və elmi əməkdaşlığın genişlənməsində mühüm əhəmiyyət kəsb edir

*Yeganə BAYRAMOVA*

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfər edib. Bu səfər iki ölkə arasında mədəni və elmi əməkdaşlığın daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində həyata keçirilən görüşlər və müzakirələr qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə, eləcə də ortaq layihələrin təşviqinə zəmin yaradır.

Səfərin əsas məqsədlərindən biri Azərbaycan və Efiopiya arasında humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi, regionların sosial və ictimai inkişafı üzrə təcrübə mübadiləsinin aparılmasıdır. Bu cür qarşılıqlı əlaqələr xalqlar arasında mədəni yaxınlaşmanı gücləndirməklə yanaşı, uzunmüddətli tərəfdaşlıq üçün də etibarlı əsas formalaşdırır.

Heydər Əliyev Fondunun qlobal miqyasda həyata keçirdiyi layihələr fondun fəaliyyətinin yalnız milli çərçivələrlə məhdudlaşmadığını bir daha nümayiş etdirir. Fondun sosial rifahın yüksəldilməsi, mədəni irsin qorunması və elmi inkişafın təşviqi istiqamətində atdığı addımlar Azərbaycanın beynəlxalq aləmdə humanitar dəyərlərə sadiq bir ölkə kimi mövqeyini daha da möhkəmləndirir. Leyla Əliyevanın Efiopiyaya səfəri də bu baxımdan Azərbaycan diplomatiyasının və humanitar siyasətinin uğurlu davamı kimi qiymətləndirilə bilər.

**Efiopiya Elm Muzeyində**

Səfər çərçivəsində Leyla Əliyeva Efiopiya Elm Muzeyini ziyarət edib. Burada onu Efiopiya Federativ Demokratik Respublikasının Baş nazirin ofisinin rəhbəri və kabinet işləri naziri Alemtsehay Paulos qarşılayıb. Məlumat verilib ki, Efiopiya Elm Muzeyi 2022-ci ilin oktyabrında ziyarətçilərin istifadəsinə verilib. Yeddi hektar ərazidə inşa olunmuş və 80 faizi yaşıl sahədən ibarət olan muzey iki möhtəşəm binadan ibarətdir. Bu nəhəng muzey kompleksi elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərməklə, müxtəlif sahələr üzrə həm qədim, həm də müasir texnologiyaları qoruyub saxlamaq və onları gələcək nəsillərə ötürmək məqsədi daşıyır.

Efiopiyanın Baş naziri Abiy Ahmedin təşəbbüsü ilə inşa edilən kompleksdə elm və texnologiyaya həsr olunan müasir interaktiv eksponatlar, planetarium və Günəş panelləri kimi ekoloji cəhətdən təmiz dizayn elementləri yer alır. Muzey xüsusilə gənclər arasında innovasiyanı və rəqəmsal bacarıqların inkişafını təşviq etməyi hədəfləyir, texnoloji tədbirlər və konfranslar üçün mühüm mərkəz rolunu oynayır.

**Adva Zəfər Muzey Kompleksi ilə tanışlıq**

Leyla Əliyeva Adva Zəfər Muzey Kompleksində də olub. Adva Zəfər Muzeyi 1896-cı il martın 1-də Adva döyüşündə İtaliya işğalçıları üzərində qazanılan qələbəyə həsr olunan memorial kompleksdir. Kompleks Əddis-Əbəbə şəhərinin mərkəzində, vaxtilə ölkənin hər yerindən gələn efiopiyalıların Adva döyüşünə yollanmazdan əvvəl toplandığı məkanda yerləşir. Bu tarixi hadisə həm Efiopiya, həm də bütövlükdə Afrika qitəsi üçün xalqın azadlıq uğrunda nümayiş etdirdiyi birlik və qətiyyəti simvollaşdıraraq böyük əhəmiyyət kəsb edir. Sözügedən döyüşdə Efiopiya parlaq qələbə qazanaraq öz müstəqilliyini qoruyub və Afrika tarixində müstəmləkəyə çevrilməyən yeganə dövlət olub.

Leyla Əliyeva Əddis-Əbəbənin ən böyük istirahət məkanı olan "Dostluq" parkına da ziyarət edib. Parkın mərkəzindəki möhtəşəm musiqili fəvvarənin nümayişi ətrafda sehrli bir atmosfer yaradıb. Azərbaycan xalq mahnılarının həzin sədaları altında rəqs edən su damlaları musiqinin akkordları ilə harmoniya təşkil edərək zərif bir sənət əsərini xatırladıb

**"ASAN xidmət" modeli əsasında yaradılmış mərkəz**

Efiopiya Federativ Demokratik Respublikasına səfəri çərçivəsində Leyla Əliyeva paytaxt Əddis-Əbəbədə yerləşən "MESOB" dövlət xidməti mərkəzində olub. Efiopiyanın Dövlət qulluğu üzrə federal komissarı (nazir) Mekuria Haile Leyla xanımı qarşılayıb. Bildirib ki, "ASAN xidmət" modeli əsasında yaradılmış "MESOB" vətəndaşların mühüm dövlət xidmətlərinə çıxışını asanlaşdırmaq üçün müasir "bir pəncərə" platformasıdır. Federal agentliklərin 140-dan çox xidmətini vahid rəqəmsal və fiziki mərkəzdə birləşdirən "MESOB", dövlət xidmətlərinin daha sürətli, rahat və etibarlı şəkildə göstərilməsini təmin edir.

Səfər çərçivəsində Leyla Əliyeva ilə Efiopiyanın Baş naziri Abiy Əhməd Əli arasında görüş keçirilib. Söhbət zamanı Azərbaycan ilə Efiopiya arasındakı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri ətraflı müzakirə olunub. Səmimi dialoq şəraitində keçən görüşdə Leyla Əliyeva Azərbaycan Respublikası Prezidentinin salamlarını qarşı tərəfə çatdırıb və dövlətimizin başçısının adından Baş naziri ölkəmizə səfərə dəvət edib. Efiopiyanın Baş naziri Abiy Əhməd Əli dəvəti böyük məmnuniyyətlə qəbul edərək, Azərbaycan Prezidenti haqqında yüksək ehtiramla danışaraq, xoş sözlərini ifadə edib.

# Pan-Avropa enerji təchizatçısı

## Azərbaycan Avstriya və Almaniyaya qaz nəqlinə başlamaqla TAP kəmərinin Qərbi Avropaya keçidini təmin edib







Azərbaycan etibarlı və sadiq qaz təchizatçısı kimi həcm və coğrafiya baxımından yanacaq ixracını artırmaqdadır. Respublikamızın yürütdüyü enerji siyasəti birbaşa yaxın tərəfdaşlıq və həmrəylik konseptinə əsaslandığından enerji sıxıntısı ilə üzləşən ölkələrə dəstək göstərilməsi xüsusi diqqətdə saxlanılır. Bu, ötən illər ərzində qonşu Gürcüstanın, Ukrayna, Belarus və digər dövlətlərin timsalında özünü təsdiqləyib. Ölkəmizin şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı statusu bir çox ölkələrin enerji təhlükəsizliyində mühüm rol oynamaqdadır.

**Suriyanı enerji böhranından qurtaran dövlət**

Ötən il Azərbaycan Suriyada geoiqtisadi tablonu nəzərə olaraq bu ölkənin də enerji problemlərinin həllinə dəstək göstərən ilk dövlətlərdən biri oldu. Bu ölkədə yaranmış enerji böhranını aradan qaldırmaq üçün öz dostluq əlini uzadan Azərbaycan Suriyaya qaz ixrac etməklə Yaxın Şərq bölgəsində də etimadlı təminatçıya çevrildi. Bu addım xarici enerji koalisiyası tərəfindən də yüksək dəyərləndirildi və ildə 1 milyard kubmetr həcmində Suriyaya ötürülən qazın həmin ölkə üçün həyati vacib əhəmiyyəti alqışlandı.

Çünki Azərbaycan qazının Suriyaya nəqli təkcə iqtisadi deyil, həm də geosiyasi məsələdir. Suriyanın qaz nəqli şəbəkəsi "Ərəb qaz şəbəkəsi" adlandırılan sistemə qoşulub, bu şəbəkəyə Suriya, Livan, İordaniya və Misir daxildir. Bu isə o deməkdir ki, Azərbaycanın qazı bu ölkələrin hamısına ixrac edilə bilər və körfəz dövlətləri blokunda yeni enerji alyansı formalaşması qaçılmazdır.

**Ukraynanın enerji təminatçısı**

Azərbaycanın enerji böhranından çıxardığı ölkələrdən biri də Ukraynadır. Ötən il Ukraynanın "Naftogaz" Şirkətlər Qrupu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) qrupuna daxil olan "SOCAR Energy Ukraine" şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında imzalanmış müqaviləyə əsasən, ilk dəfə Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükünə başlanılıb. Rus qazının tranziti dayandığından Ukraynanın qazpaylayıcı sistemi işləksiz qaldığı halda tamamilə iflic ola bilərdi və Azərbaycan Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçirməklə Ukraynanın enerji infrastrukturunu sıradan çıxmaqdan xilas edib.

Azərbaycan bu nümunəvi addımı ilə bir daha sübut edir ki, regionda əsil enerji əməkdaşlığı və dostluğu halqası yaradan qüdrətli dövlətdir. Bunu mühüm hadisə kimi dəyərləndirən "Naftogaz"ın baş direktoru Sergey Koretski bildirib ki, qaz tədarükü həcm baxımından kiçik olsa da, strateji cəhətdən mühüm addımdır və uzunmüddətli əməkdaşlığa yol açır.

**Qazın nəql edildiyi 16 ölkənin 12-si Avropa ölkəsidir**

Beləliklə, Azərbaycan qaz istehsalının həcmi artdıqca enerji həmrəyliyinin halqasını böyüdərək digər ölkələrin də yanacaq sıxıntılarını həll etməyə çalışır. Enerji siyasətində başlanmış yeni mərhələ sayəsində ölkəmiz enerji diplomatiyasında coğrafi və geosiyasi şaxələnməni genişləndirir, hər il ən azı 2 ölkəyə əlavə qaz nəql edir. Ötən gün Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Avstriya və Almaniyaya qaz tədarükünə başlanması bu coğrafi əhatəni bir qədər də genişləndirərək qazın birbaşa Qərbi Avropaya qədər nəqlinə səbəb olur. Belə ki, SOCAR Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə nəql edilən əhəmiyyətli həcmdə qazın Cənubi və Mərkəzi Avropa bazarlarından Qərbi Avropaya keçidini də təmin edib.

Bu ixrac addımı sayəsində Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatmış olur. Həmin ölkələrin 12-si birbaşa Avropa İttifaqı (Aİ) ölkələridir. Bu isə Azərbaycanın Avropa regionunda ən güclü təchizatçı və Pan-Avropa təminatçısı olduğunu bir daha təsdiqləyir.

**Aİ bölgəsinə qaz ixracı 20 milyard kubmetrə çatacaq**

Hazırda Azərbaycan 25 milyard kubmetrdən çox qaz ixrac edir və yanacağın nəqli dayanmadan artır. Ötən il ölkəmizdə 51,5 milyard kubmetr təbii qaz hasil edilib ki, bu da 2024-cü illə müqayisədə 1,2 milyard kubmetr və ya 2,4 faiz çoxdur. Hasilatın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 27,9 milyard kubmetri "Şahdəniz"in, 1,6 milyard kubmetri "Abşeron" yatağının, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Həmin dövrdə qaz ixracı 25,2 milyard kubmetr təşkil edərək 2024-cü ildəki səviyyə ilə eyni qalıb. Qaz ixracının 12,8 milyard kubmetri Avropaya (0,78 faiz azalma), 9,6 milyard kubmetri Türkiyəyə (3,03 faiz azalma) (o cümlədən TANAP-la 5,6 milyard kubmetr), 2,3 milyard kubmetri Gürcüstana (4,17 faiz azalma), 0,5 milyard kubmetr isə Suriyaya ixrac edilib.

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2025-ci ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir.

Mövcud proqnozlara görə, 2026-2028-ci illərdə ölkəmizin Avropa regionuna ixracı 20 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nda nəzərdə tutulmuş hədəflərə çatmağı təmin edəcək.

**Mərkəzi Asiya ölkələri TAP-a qoşula bilər**

Xəzər regionuna zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan və Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasnı və bununla da təkcə bu mənbədən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi maşrutu mövcuddur və işləkdir. Türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq üçün hüquqi mexanizm və beynəlxalq sazişlər olmalıdır ki, hazırda bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır.

Beləliklə, Xəzər bölgəsində qaz ixracını artırması Azərbaycan Avropa və dünya enerji bazarında qaz ixracını böyütməklə regionun ən qüdrətli təchizatçısına çevirəcək. Bu amil isə Azərbaycan və Avropa İttifaqı ölkələri arasında iqtisadi və siyasi münasibətlərin də gündəliyini yeniləməklə sıx əməkdaşlıq platformasını möhkəmləndirəcək.

***ELBRUS CƏFƏRLİ***

# Azərbaycanın qlobal şəhərsalma gündəliyində liderliyi




Azərbaycanı qlobal dialoq məkanı kimi səciyyələndirmək mümkündür. Son illərdə ölkəmizin bir sıra beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi bu qənaəti möhkəmləndirir. 2024-cü ildə respublikamızda BMT-nin ən mühüm və ən böyük tədbirlərindən biri olan iqlim konfransı - COP29 böyük uğurla baş tutdu. Cari ildə isə ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbirin keçirilməsi gözlənilir. Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir.

Bu günlərdə beynəlxalq tədbirin keçirilməsinə hazırlıq üzrə daha bir uğura imza atılıb. Belə ki, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təmsil olunan BMT və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təmsil olunan Azərbaycan Hökuməti arasında WUF13 ilə bağlı bütün təşkilati məsələləri ehtiva edən mühüm saziş imzalanıb.

## Ölkəmizin şəhərsalma təcrübəsi beynəlxalq müstəvidə

BMT-nin müvafiq tədbirinə ev sahibliyi hüququnun ölkəmizə verilməsini şərtləndirən digər bir mühüm amil isə Azərbaycanın şəhərsalma, xüsusilə də işğaldan zərər çəkmiş ərazilərdə yaşayış məntəqələrinin bərpası sahəsində qazandığı təcrübəyə beynəlxalq səviyyədə marağın artmasıdır. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Cenevrədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 35-ci Yüksək Səviyyəli Toplantısı çərçivəsində dövrümüzün ən aktual çağırışlarından biri olan qlobal mənzil böhranının həllinə dair birgə yanaşmalara həsr olunmuş panel müzakirəsində Azərbaycanın təcrübəsinə diqqət çəkib. Komitə sədri respublikamızın əlçatan mənzil sahəsində əldə etdiyi təcrübəni, həmçinin "Yenidən və daha yaxşı qur" prinsipi əsasında Qarabağ və Şərqi Zəngəzur ərazilərində həyata keçirilən yenidənqurma işlərini və əhalinin doğma torpaqlara qayıdışını təmin edən transformativ yanaşmaları iştirakçılarla bölüşüb.

Ötən ilin əvvəlində təqdim olunan Bakı şəhərinin Baş Planı ölkəmizin müasir şəhərsalma çağırışlarına yanaşmasını aydın şəkildə nümayiş etdirir. Bakı şəhərinin 2040-cı ilə qədərki dövrdə inkişafına dair Baş Planında bir sıra mühüm prinsiplər əsas götürülüb. Sənəd yaxın illər ərzində Bakı şəhərinin strateji inkişaf istiqamətlərini müəyyən edən əsas ərazi-planlaşdırma sənədidir. Baş Plan ərazi zonalaşdırılması, əsaslı tikinti, nəqliyyat və sosial infrastruktur, kommunal sistemlər, eyni zamanda ərazilərin abadlaşdırılması tədbirləri, habelə post-sənaye dövrünə keçidi təmin edəcək yeni şəhər iqtisadiyyatı məsələlərini özündə ehtiva edir. Bütövlükdə, 4 vacib hədəfə əsaslanan Baş Plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə 2040-cı ilədək olan müddət ərzində paytaxtın əsas inkişaf perspektivlərini müəyyənləşdirir.

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur.



## Dünyada ölkəmizə artan inam

Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi hüququnun Azərbaycana verilməsi təsadüfi deyil. Beynəlxalq birliyin ölkəmizə, onun Lideri İlham Əliyevə dərin inamı bu seçimi şərtləndirən ən mühüm amildir. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkan və resursları ilə yanaşı, qlobal miqyasdakı mövqelərini də nəzərə alırlar. Azərbaycan özünün ardıcıl və multiregional səciyyə daşıyan xarici siyasətində bir qayda olaraq xoş mərama əsaslanır. Ölkəmiz hər zaman qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüslərindən çıxış edir və ilk növbədə özünün verdiyi töhfələrlə bu təşəbbüslərin reallaşmasına nail olur.

Eyni zamanda, dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır. Azərbaycan belə tədbirləri bir qayda olaraq yüksək standartlar səviyyəsində təşkil edir və bu standartlar sonradan bütün dünyada nümunə kimi qəbul olunur.

## WUF13-ə hazırlıq prosesində praktiki mərhələyə keçid

Cenevrədə bəhs olunan sazişin imzalanması 17-22 may 2026-cı il tarixlərində Bakıda "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda keçiriləcək WUF13-ə hazırlıq prosesində mühüm mərhələni ifadə edir. Sözügedən sənəd 2023-cü ilin dekabrında imzalanmış ev sahibliyinə dair Sazişin məntiqi davamı olmaqla, tədbirin hazırlanmasını praktiki mərhələyə keçirir.

Tədbirdə UN-Habitat və Azərbaycan arasında səmərəli əməkdaşlıq qurulduğuna xüsusi diqqət çəkilib. İndiyədək Qarabağ və Şərqi Zəngəzur bölgələrində 3 Milli Şəhərsalma Forumunun təşkili, eləcə də Ümumdünya Məskunlaşma Günü münasibətilə 2023-cü ildə Bakıda keçirilmiş tədbirlər bunun əyani təsdiqidir.

A.Quliyev bildirib ki, bu gün Azərbaycanın insan mərkəzli ağıllı şəhərlər üzrə beynəlxalq təlimatların hazırlanmasına dair Qlobal Ekspert İşçi Qrupunda iştirakı və "Hər kəs üçün münasib mənzil" qətnaməsi üzrə Hökumətlərarası İşçi Qrupunda həmsədrlik etməsi vasitəsilə qlobal şəhərsalma gündəliyinin formalaşmasına fəal töhfə verir. "UN-Habitat ilə tərəfdaşlığımızın ardıcıl şəkildə inkişaf etdirilməsinə möhkəm zəmin yaranacaq və dayanıqlı, inklüziv və insanyönümlü şəhərlərin təşviqinə töhfə verəcək", - deyə komitə sədri vurğulayıb.

UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbax mühüm toplantıya ev sahibliyi hüququnu öz üzərinə götürdüyünə görə Azərbaycan hökumətinə təşəkkür edib. Ölkəmizin rolunu xüsusi vurğulayan icraçı direktor "Azərbaycanın liderliyi və tərəfdaşlığı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq prosesinin mərkəzində dayanır və biz bu davamlı əməkdaşlığa görə öz minnətdarlığımızı bildiririk. Biz, təqribən 3 milyard insanı, o cümlədən qeyri-rəsmi yaşayış məntəqələrində yaşayan 1,1 milyard insana təsir edən qlobal mənzil böhranını birlikdə həll etməliyik", - deyə bildirib.

***Mübariz ABDULLAYEV***

# Ana dilimiz milli varlığımızdır

**"Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini bilməlidir".**

**Ümummilli lider Heydər Əliyev**

**"Biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir".**

**Prezident İlham Əliyev**

Ana dili hər bir millətin varlığı, qürur mənbəyidir. Ana dili ünsiyyət vasitəsi olmaqla yanaşı, xalqın tarixi, milli sərvəti, mədəniyyəti, varlığıdır. Dilini sevməyən, onu yaşatmayan kimsə nə Vətəninin, nə də xalqının qədrini bilər. İlk gündən körpə dünyaya göz açarkən ana qucağında onun isti nəfəsi, şirin laylası ilə boya-başa çatır. Deməli, milli ana dili məhz körpəlikdən insanın beyninə hopur. Odur ki, dilimizi göz bəbəyi kimi qorumaq, onu inkişaf etdirmək yad ünsürlərdən təmizləmək hər birimizin ən ümdə vəzifəsidir. Çünki dili, əlifbası olmayan xalq - xalq kimi mövcud deyildir.

Dünyada 60 milyona yaxın, təkcə Azərbaycanda 10 milyondan artıq azərbaycanlı doğma ana dilində danışır. Ana dilini sevmək, onu qoruyub saxlamaq Vətəni, xalqı, milli adət-ənənəni, mədəniyyəti sevmək və yaşatmaq deməkdir. Bu faktdır ki, tarixən Azərbaycan xalqı keşməkeşli yollar keçmiş, müsibətlərə, zülmlərə məruz qalmış, inadlı mübarizədə əzmlə yürümüş, lakin dilini, milli adət-ənənələrini mədəniyyətini heç vaxt unutmamış, onu qoruyub bugünümüzə qədər saxlamışdır.

Hələ keçən əsrin əvvəllərinə qədər ərəb və fars dillərinin hegemonluğuna məruz qalan Azərbaycan dili öz varlığını yaşatmışdır. Söz ustadlarımız, klassiklərimiz, görkəmli alimlərimiz, dövlət xadimlərimiz bu dilin yaşamasında, inkişaf edib formalaşmasında əvəzsiz xidmətlər göstərmişlər. Hətta Azərbaycan Səfəvi dövlətinin yaradıcısı Ş.İ.Xətainin dövründə (XVI əsr) - Azərbaycan mədəniyyətinin canlanmağa başladığı bir dövrdə - ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan dili də dövlət dili statusunu qazanmışdı.

Ə.Hüseynzadənin "Füyuzat" C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalları meydana gəldi. Lakin bunlarla yanaşı, dilimizdə bir çox yad ünsürlərin işlədilməsi özünü göstərirdi. O zaman da dilimizə keçən çətin sözlərə lüzumsuz ləfzlərə qarşı ziyalılarımız mübarizə aparırdı. Bu sırada Ə.Haqverdiyevin, Ö.F.Nemanzadənin, M.Şahtaxtlının, C.Məmmədquluzadənin, Y. V.Çəmənzəminlinin, N.Nərimanovun, sonralar M.İbrahimovun, S.Vurğunun, B.Vahabzadənin xidmətlərini qeyd etmək olar. Ə.Haqverdiyev hələ o dövrdə "Ədəbi dilimiz haqqında" məqaləsində yazırdı ki, gənclərimiz özləri hiss etməyərək Azərbaycan qulağını deşən ləfzləri istemal edirlər... Məsələn "sırt" - "çiyin", "erkək" - kişi. "Erkək" sözü Azərbaycan türkü təsəvvüründən heyvaniyyəti təşkil edən bir sözdür.

Ö.F.Nemanzadə 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap etdirdiyi "Dilimiz və imlamız" məqaləsində yazırdı: "...dadlı dilimizin yavaş-yavaş aşağıya doğru düşdüyünü görürüz. Sevgili dilimizin aramızdan artıq qiyməti gedir. Halbuki bu zamanda hər millət öz dilini saxlamaq üçün varını yox canını belə fəda edir". C.Məmmədquluzadə "Cırcırama" imzası ilə 1908-ci ildə "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Ana dili" felyetonunda yazır: "Yazıq bizim dilimiz, "ana" əvəzinə "madər" yazırıq, tatar qəzetçilərimiz də "İran"ı "Persiya" yazırlar..."

1914-cü ildə Y.V.Çəmənzəminli "Dil məsələsi" məqaləsində yazırdı: "Necə" sözü əvəzində "nasıl", "arvad" əvəzində "qadın", "ata" yerinə "baba" və ya "pədər" yazmaq millətin dilini dolaşdırıb, işini çətinləşdirməkdən savayı bir şeyə yaramır".

Sovet dövründə də dilimizə rus dilindən və bu dil vasitəsilə çoxlu Avropa mənşəli söz və terminlər keçmişdi. Onların qalıqları hələ də danışıq dilimizdə işlədilir, Məsələn: xolodilnik, morojna, stol, krovat, vilka, vişnə, papa, mama, ukol, zamok və s. Biz həmin sözlərin əvəzinə: soyuducu, dondurma, masa, çarpayı, çəngəl, albalı (gilənar), ata, ana sözlərini nə üçün işlətməyək?! Bunlardan əlavə, hələ də uje, neujeli, niçeqo, xoroşo, yest, koneşno şofer, vapşe və sair sözlər işlədilir. Bu cür sözlərin sayı çoxdur.

Elə adamlar da vardır ki, danışıq prosesində Azərbaycan, rus, ingilis, türk dillərini bir-birinə qarışdırıb danışır: no, nasılsan, yes, nasıl, abi və s. sözlərdən daha çox istifadə olunur. Məgər bu, ana dilini korlamaq deyilmi?! Bu, əlbəttə, öz ana dilinə xor baxmaqdır, ana dilinə qarşı hörmətsizlikdir.




Hazırda həm uşaqlar, həm də böyüklər türk kanallarına və xarici seriallara daha çox meyillidirlər, nəinki Azərbaycan televiziya kanallarına. Ana dilimizə soyuqluq da burdan yaranır. Gənclər Azərbaycan və türk sözlərini qarışıq işlədirlər. Bunun nəticəsində də hər iki dildən yarımçıqdırlar. Rus və ingilis dillərində də vəziyyət eynidir.

Biz hər hansı bir xalqın dilinin öyrənilməsinin əleyhinə deyilik. Xarici dillərin hər hansı birində danışmaq bizim üçün çox vacibdir. Çünki həmin dildə dünya səyahətinə çıxmaq olar. Ümummilli lider Heydər Əliyev həmişə vurğulayırdı ki, dili inkişaf etdirməliyik. "Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".

Odur ki, 18 iyun 2001-ci ildə "Dövlət dilinin təkmilləşməsi haqqında" fərman qəbul edildi. Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli fərmanı ilə 1 avqust respublikamızda Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunur.

30 sentyabr 2002-ci ildə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Qanunun qəbul edilməsi ana dilimizin qorunması, inkişaf etdirilməsi istiqamətində daha bir addım atıldı. Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı isə ana dilimizin inkişaf edib daha da möhkəmləndirilməsinə böyük qayğının təzahürüdür. Dövlət başçısı dilimizə olan xüsusi diqqətin nümunəsi kimi 23 may 2012-ci il tarixində "Azərbaycan dilinin qloballaşması şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" yeni sərəncam imzaladı.

Prezident İlham Əliyev mütəmadi olaraq xalq içərisində olur, çıxışlar edir. O, çıxışlarında, əsl xalq dilində, çox sadə, başadüşüləcək tərzdə sözünü xalqa, millətə çatdırır. Dilimizə keçən heç bir yad ünsürlərdən istifadə etmir. Gözəl nitqi var. Həm ingilis dilində, həm də rus dilində xarici jurnalistlərin suallarına cavabda, rəsmi dövlət görüşlərində siyasi cəhətdən fikirlərini bildirir. Buna görə də, ABŞ-nin prezidenti Donald Tramp İlham Əliyevi böyük siyasətçi adlandırır.

Prezident hər bir çıxışında Azərbaycan dilinin qorunub saxlanmasında tövsiyələr irəli sürür. Həmçinin, istər Azərbaycan Milli Elmlər Akademiyasındakı, istərsə də televiziya kanallarına müsahibəsində dilimizə dair dəyərli fikirlər irəli sürmüşdür. Prezident vurğulayır ki, bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən. Çox zəngin, çox melodik və gözəldir...

İlham Əliyev dilimizə keçən xarici sözlər haqqında danışarkən qeyd edir ki, bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş.

Dilimizə xələl gətirən hansı nöqsanlar var? İlk olaraq, televiziya və radio verilişlərində orfoepik qaydalara, qrammatik qanunlara, mətbuatda və yeni nəşrlərdə bədii-publisistik və elmi üslubun bir çox normalarına nə dərəcədə əməl olunur?! Qeyd edək ki, ölkə daxilində gedən iqtisadi-siyasi hadisələrlə əlaqədar dövri mətbuatda güclü söz axını vardır. Belə olan halda, termin xarakterli sözləri süzgəcdən keçirmək daha məqsədəuyğun olardı.

Ana dilimizin mükəmməl öyrənilməsi, ilk növbədə, evdən başlayır. Valideynlər öz övladları ilə gah rusca, gah ingiliscə, gah da türkcə, o da yarımçıq, danışır. Belə olan halda övlad ev şəraitində həm Əli aşından, həm də Vəli aşından olur.

İkinci bir amil radio və televiziya verilişlərindən gəlir. Göstərilən reklamlarda çoxlu səhvlər olur. Televiziya verilişlərində aparıcıların bəziləri ədəbi dil normalarına riayət etmirlər. Sözlərdən danışıq dilində, bəzən dialektlərdə danışırlar, tələskənliyə yol verirlər, xarici kəlmələrdən istifadə edirlər, vurğunu düzgün işlətmirlər, müğənnilərin bir çoxu səhnə mədəniyyətindən uzaqdırlar, oxuduqları qəzəlin son beytində müəllifin adı əvəzinə öz adlarını deyirlər, bəzən də aparıcıya xoş gəlsin deyə, onun adını hallandırırlar. Yeri gəlmişkən onu da qeyd edim ki, hazırda dildə ən çox işlənən Amerika Birləşmiş Ştatlarının (ABŞ) qısaltmasının tələffüzünə düzgün yanaşılmır: bu qısaltma ABŞ kimi yox, A-Be-Şe kimi tələffüz olunmalıdır.

Prezident İlham Əliyev, həmçinin, vurğulayır ki, jurnalistlərdən çox şey asılıdır. Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Ölkə daxilində yüzlərlə qəzet nəşr olunur. Əksəriyyəti səhvlərlə dolu, cümlə-fikir anlaşılmazlığı, əcnəbi terminlərin yersiz işlədilməsi, sözlərin orfoqrafik qaydalara uyğun yazılmaması, qrammatik normalara riayət olunmaması bizi təəssüfləndirir. Məsələn, bəzi mətbuat nümayəndələri hələ də "nikah" (kəbin izdivacı) əvəzinə, "nigah" sözünü işlədirlər. Bu, olduqca kobud səhvdir. Çünki "nigah" sözü "baxma, nəzər, baxış" deməkdir. Və yaxud da "məşhur" əvəzinə "məhşur", "müşayiət" əvəzinə "müşaiyət", "tövsiyə" əvəzinə "töfsiyyə", "töhfə" əvəzinə "töfhə", "əfv" əvəzinə "əvf" işlədirlər. Həmçinin meyit, təəccüb, layihə, bugünkü, cəfəngiyat, təəssürat əvəzinə yazılışı düzgün olmayan aşağıdakı kimi yazırlar: meyid, təcüb, lahiyə, bugünki, cəfəngiyyat, təsürat.

Avropa mənşəli sözlərdən boykot, divident, analoq, analoji, diaspor, deklarasiya, apelyasiya, lisey sözləri əvəzinə: baykot, dividend, anoloq, anoloji, diaspora, deklorasiya, apelyasiya (appelyasiya), litsey kimi işlədirlər.

Orta məktəbin bütün sinifləri üzrə yazılmış dərsliklər nöqsanlarla doludur. Ələlxüsus ibtidai siniflər üçün yazılmış dərsliklərin dili olduqca çətindir. Dilə keçən terminlərdən çox istifadə olunur. Uşaqlar həmin sözlərin çoxunun mənasını bilmir, tez yorulurlar. Əvvəlki dərsliklərdən əsər-əlamət qalmayıb. Bəzən dərslik müəllifi kitaba özünün poetik gücə, məzmuna malik olmayan şeirini salır ki, bu da uşaqları kor qoymağa bərabərdir. Halbuki elə məşhur uşaq şairlərimiz var ki, biz balalarımıza onların şeirlərini öyrətməliyik ki, yaddan çıxarmasınlar.

Yuxarıda göstərilən nöqsanlar haqqında dəfələrlə yazılmasına baxmayaraq, deyilənlərə zərrə qədər də əhəmiyyət verilmir. Atalar demişkən: "dəyirman bildiyini edər, çax-çax baş ağrıdar".

Məlum məsələdir ki, heç bir dil mükəmməl olaraq öz milli sözlərinin hesabına inkişaf edə bilməz. Lakin bir qanunauyğunluq da var ki, dillər bir-birinin yardımına möhtacdır. Bütün bunlar isə elmin və texnikanın inkişaf etməsi ilə əlaqədardır. Dilə o vaxt yeni söz və termin gəlir ki, dilin həmin sözə ehtiyacı olur. Dilimizə keçən elə alınmalar var ki, həmin dildə onun qarşılığı olmur və elə sözlər də vardır ki, onları digər milli sözlə əvəz etmək qeyri-mümkündür. Məsələn, dilimizə keçib qarşılığı olmayan beynəlmiləl sözlərdən aşağıdakıları misal çəkə bilərik: kompüter, internet, manşet, skaner, fayl, virtual, disk, virus (kompüterdə) metafayl, metrik, provayder, taymer, onlayn, bit, menecer, tvitter və s. belə sözlər yalnız izahat tələb edir.

Elə sözlər və terminlər də vardır ki, onun qarşılığını milli sözlərimizlə əvəz edə bilərik. Bu mümkün olmadıqda digər alınmalara müraciət etməli oluruq: link (istinad, keçid, bağlantı, əlaqə kanalı), blank (aralıq), italik (kursiv), toner (rəngləyən toz), filter (süzgəc), interval (ara, aralıq), printer (çap qurğusu), dizayn (sxem, layihə), vord (söz), data (verilənlər), adapter (yükləyici, uyğunlaşdırıcı qurğu), enter (daxil olma(q), giriş), kseroks (surət), exit (çıxış, getmək), modul (hədd, ölçü), lokal (yerli), monitorinq (nəzarət), servis (xidmət etmə, xidmət göstərmə), planşet (altlıq), banner (titul; bayraq), pult (idarəedici), mer (bələdiyyə rəhbəri (sədri)) və digər nümunələr göstərmək olar. Lakin həmin sözləri unifikasiya edib, yəni vahid sistemə salıb işlətmək lazımdır. Ruslar da "maus" əvəzinə "mışka" işlədirlər. Biz də bu sözü "siçan" kimi işlədə bilmərikmi?

Son vaxtlar dildə ən çox işlənən, "rozetka" sözünün mənasını tez-tez soruşurlar. Mübahisə doğuran həmin sözün açıqlamasını, fikrimcə, "elektroyuva" kimi qəbul etmək məqsədəuyğun olardı. Biz, ilk növbədə, onu nəzərə almalıyıq ki, ana dilimizin saflığını, təmizliyini qoruyub milliliyinə xələl gətirməməsinə çalışmalıyıq. Dilimizin qayğısına qalmalı, onu yaşatmalıyıq. Bütün bunları ölkəmizdə yaşayan başqa millətlərə də aşılamalıyıq. Burada Ulu Öndər Heydər Əliyevin müdrikanə sözlərini xatırlamamaq olmur: "Azərbaycan, Azərbaycanda yaşayan bütün millətin doğma Vətənidir. Azərbaycan dili bizi bir-birimizə birləşdirib. Burada bizim bir çox etnik köklü millətlərə mənsub olan adamların hamısı Azərbaycan dilini öz ana dili kimi qəbul edib".

Xalqı yaşatmaq üçün dil əsas vasitədir. Ana dili məhv olarsa, xalq da heçliyə yuvarlanar. Dilimizin sadəliyini, saflığını qorusaq, dil bir o qədər gözəl olar. Gəlin, əcnəbi sözləri lüzumsuz yerə işlətməyək, düzgün ifadə edək. Yerində söylənmiş milli sözlərimiz qüdrətlidir, canlıdır. Dünya dilləri içərisində dilimiz rəğbət bəslənilən dildir. Hətta əcnəbilərin bizim dilimizə maraq göstərib öyrənməsi faktı da dilimizin şəhdi-şəkərinə rəğbətləridir. Sələflərimizdən bizə miras qalan ana dilimizi göz bəbəyi kimi qorumaq hər bir Azərbaycan vətəndaşının mənəvi borcudur.

Prezident İlham Əliyev onu da vurğulayır ki, Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm...



***Nəriman Seyidəliyev,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun baş elmi işçisi,***
***filologiya elmləri doktoru***

# Tarixi təzyiqdən müasir repressiyalara...

## Hindistanda siqhlərə qarşı ayrı-seçkilik siyasəti

Müasir dünyada ayrı-seçkilik və dini-etnik təzyiqlər hələ də qlobal problemlər sırasında qalmaqdadır. Xüsusilə kolonializm siyasətinin mirası olan dövlətlərdə bu yanaşmalar yeni formalarda davam edir. Bir zamanlar “sivilizasiya missiyası” adı altında xalqların hüquqlarını tapdalayan kolonial güclər bu gün də insan haqları mövzusunda selektiv mövqe nümayiş etdirirlər. Azərbaycan isə beynəlxalq platformalarda kolonializmin bütün formalarına qarşı açıq və prinsipial mövqe ortaya qoyaraq, dini və etnik azlıqların hüquqlarının müdafiəsini ardıcıl şəkildə gündəmə gətirir. Bu mövqenin tərkib hissəsi kimi Azərbaycan müxtəlif xalqların üzləşdiyi ayrı-seçkilik hallarını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Rəsmi Bakı kolonial siyasətin qurbanı olmuş xalqların səsini dünyaya çatdırmaqla yanaşı, bu məsələnin beynəlxalq gündəlikdə saxlanılmasına da mühüm töhfələr verir.









**BTQ qısa müddətdə mühüm işlər görüb**

Bu məqsədlə yaradılan Bakı Təşəbbüs Qrupu kolonializmə qarşı mübarizənin institusional və sistemli mərhələyə keçdiyini göstərən mühüm platforma kimi çıxış edir. Qrupun qısa müddət ərzində apardığı ardıcıl fəaliyyət, beynəlxalq tədbirlər, çağırışlar və prinsipial mövqeyi Azərbaycanın bu sahədə ön sıralarda təmsil olunduğunu təsdiqləyir və ölkəmizin qlobal ədalət, bərabərlik və azadlıq uğrunda mübarizədə artan rolunu bir daha nümayiş etdirir. Son iki il ərzində təşkilat dünyanın müxtəlif ölkələrində 30-dan çox yüksəksəviyyəli beynəlxalq konfrans keçirib, indiyədək dörd kitab nəşr etdirib, həmçinin BMT qurumlarına bir neçə alternativ hesabat təqdim edib. BTQ bununla yanaşı, Afrika Mənşəli İnsanlar üçün Beynəlxalq Onilliyin icrasına həsr olunmuş əsas çağırışları və bu qrupların hüquqlarının qorunmasının, onların tanınmasının və inkişafının təşviqi üzrə tövsiyələri əks etdirən əhatəli hesabatı BMT-yə təqdim edib. BTQ həm də 20-dən çox ölkə və dənizaşırı ərazi ilə əməkdaşlıq əlaqələri qurub, 25-dən artıq təşkilat və beynəlxalq institutla tərəfdaşlıqlar formalaşdırıb.

Məhz bu kontekstdə, Bakıda siqhlərin hüquqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi təsadüfi deyil. Yanvarın 16-da ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən “Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar” adlı beynəlxalq konfransda Hindistanda siqh icmasının sistemli təzyiqlərə məruz qalması, dini azadlıqların məhdudlaşdırılması və siyasi təqiblər müzakirə mövzusu olub.

**Siqhlik: dini və bərabərlik fəlsəfəsi**

Siqhizm XV əsrdə Quru Nanak tərəfindən təsis edilmiş və insanın dini, irqi və sosial mənsubiyyətindən asılı olmayaraq bərabərliyini əsas prinsip kimi qəbul edən bir inanc sistemidir. Siqhlik zorakılığa, kasta ayrı-seçkiliyinə və dini fanatizmə qarşı çıxış edərək sosial ədaləti təşviq edib. Bu ideoloji xətt siqhlərin tarix boyu haqsızlığa qarşı müqavimət göstərməsinə səbəb olub. Siqhlərə qarşı ilk sistemli təzyiqlərin tarixi XVI əsrə dayanır. Həmin dövrlərdə siqh dini liderləri edam edilib, məbədlər dağıdılıb, icma zorla islamlaşdırma siyasəti ilə üzləşib. Bu təzyiqlər siqhlərin hərbiləşməsinə və özünümüdafiə mexanizmlərinin formalaşmasına gətirib çıxarıb. Sonradan siqhlər regionda marağı olan bir sıra Qərb dövlətlərinin hərbi dayaqlarından biri kimi istifadə edilsə də, kolonial siyasətin əsas məqsədi dini icmalar arasında dərin parçalanma yaratmaq olub. Kolonializm formal olaraq başa çatsa da, onun yaratdığı idarəçilik modeli müstəqil Hindistanda da davam etdirilib. 1947-ci ildən sonra Hindistan dünyəvi dövlət modeli elan edilsə də, praktikada siqh icmasının siyasi və mədəni hüquqları sistemli şəkildə məhdudlaşdırılıb. Pəncab əyalətində dil, muxtariyyət və iqtisadi bərabərlik tələbləri “separatçılıq” kimi təqdim edilərək təhlükəsizlik problemi səviyyəsinə qaldırılıb. Bu yanaşma siqhlərin kollektiv şəkildə hədəfə alınmasına yol açıb.

**1984-cü il faciəsi: Qızıl Məbəd və antisiqh siyasəti**

1984-cü ildə Hindistan ordusunun Amritsardakı Qızıl Məbədə hücumu siqh icmasının yaddaşında silinməz iz buraxdı. “Mavi Ulduz” əməliyyatı zamanı minlərlə mülki şəxs həyatını itirdi. Ardınca ölkə üzrə təşkil olunan antisiqh iğtişaşları faktiki olaraq dini pogrom xarakteri daşıdı. Minlərlə siqh qətlə yetirildi, evlər yandırıldı, lakin günahkarların əksəriyyəti məsuliyyətə cəlb edilmədi.

Hindistan hüquq-mühafizə orqanlarının həyata keçirdiyi silahlı basqınlar və repressiv siyasət nəticəsində yalnız 1984-cü ildə 8 min -17 min siqh qətlə yetirilib, 50 mindən çox siqh üzvü isə Hindistan hökumətinin təqiblərindən qaçaraq xarici ölkələrə mühacirət edib. 1980-1990-cı illərdə Pəncabda siqh icmasının minlərlə üzvü oğurlanıb və ya qaçırılıb, eyni zamanda, məhkəmə prosesi olmadan qondarma ittihamlarla qətlə yetirilib. Hazırda hüquqlarını tələb edən siqh fəallar “separatizm” və ya “casusluq” ittihamları ilə həbs edilir, Pəncabda polis reydləri isə artmaqda davam edir. Xaricdə yaşayan siqh fəallara qarşı terror aktları təşkil olunub və Kanada ilə ABŞ rəsmi qurumları bu aktların törədilməsində Hindistan xüsusi xidmət orqanlarını ittiham ediblər.

**Müasir dövrdə siqhlərə qarşı institusional təzyiqlər**

Bu gün də Hindistanda siqh fəalları, jurnalistlər və hüquq müdafiəçiləri təzyiqlərlə üzləşir. “Xalistan” mövzusu bəhanə edilərək söz azadlığı, toplaşma hüququ və siyasi fəaliyyət məhdudlaşdırılır. Beynəlxalq insan haqları hesabatlarında Hindistanın siqh icmasına qarşı sərt təhlükəsizlik yanaşması açıq şəkildə tənqid olunur. Qeyd edək ki, qaçan siqh icmasının üzvlərinin böyük əksəriyyəti hazırda Kanada, Böyük Britaniya, ABŞ və Avstraliyada məskunlaşıblar və Hindistanda bu gün də davam edən siyasi repressiyalara qarşı ədalət tələb edirlər. Siqh icması Hindistan hökumətindən 1984-cü il antisiqh qırğınlarının rəsmi olaraq soyqırımı kimi tanınmasını, yeni müstəqil istintaq komissiyasının yaradılmasını, soyqırımı təşkilatçılarının məhkəmə qarşısına çıxarılmasını və 1980-1990-cı illərdə Pəncabda minlərlə yoxa çıxmış şəxsin taleyinin aydınlaşdırılmasını tələb edir.

**Azərbaycanın mövqeyi və beynəlxalq həmrəylik çağırışı**

Azərbaycan kolonializmə, dini və etnik ayrı-seçkiliyə qarşı çıxış edərək beynəlxalq hüququn universal tətbiqini tələb edir. Bu yanaşma həm siqhlərin, həm də dünyanın müxtəlif bölgələrində hüquqları pozulan xalqların səsinin beynəlxalq platformalarda eşidilməsinə töhfə verir.

Bu konteksdə Bakıda keçirilən konfransda da Hindistan hökumətinin siqhlərə və digər etnik azlıqlara qarşı sistemli irqi ayrı-seçkilik, zorakılıq və repressiv siyasəti, xüsusilə BMT-nin “Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt”, “İrqçiliklə Mübarizə üzrə Beynəlxalq Konvensiya” və “İşgəncələrə qarşı Konvensiya” üzrə öhdəliklərinin etnik azlıqlara münasibətdə kobud şəkildə pozulması məsələləri müzakirə olunub. Real vəziyyətin beynəlxalq təşkilatların gündəliyində saxlanması və müvafiq qərarların qəbul olunması, xüsusilə BMT-nin İnsan Hüquqları Komitəsi tərəfindən Hindistanda etnik azlıqların pozulmuş hüquqları, məhkəmə qərarları olmadan icra edilmiş edamların araşdırılması, eləcə də BMT-nin xüsusi məruzəçiləri tərəfindən hüquq pozuntularının sənədləşdirilməsi və beynəlxalq monitorinqə çıxarılması imkanları ətrafında müzakirələr aparılıb

*P.İSMAYILOV*

# Avropa Parlamenti Aİ ilə ABŞ arasında ticarət sazişinin ratifikasiyasını dayandırır

Avropa Parlamenti ABŞ Prezidenti Donald Trampın təhdidləri fonunda Avropa İttifaqı-ABŞ ticarət sazişinin planlaşdırılan ratifikasiyasını dayandırır. Bu barədə Avropa Parlamentinin aparıcı fraksiyası olan Avropa Xalq Partiyasının rəhbəri Manfred Veber “ZDF” televiziya kanalına müsahibəsində bildirib. Veber qeyd edib ki, verdiyimiz ilk qərar, ötən yay Avropa ilə ABŞ arasında imzalanmış müqavilənin ratifikasiyasının dayandırılmasıdır. Bu o deməkdir ki, Donald Tramp Amerika məhsulları üçün AB daxili bazarına rüsumsuz giriş əldə etməyəcək. Onun sözlərinə görə, ratifikasiyanın dayandırılması Vaşinqtona ilk siqnaldır.

Qeyd edək ki, Avropa Parlamentinin üzvlərinin 2025-ci ilin yayında Brüssel və Vaşinqton arasında əldə edilən razılaşmanın əsas məqamlarından biri olan Amerika sənaye mallarına tariflərin ləğvi ilə bağlı qurumun mövqeyinə səsverməni yanvarın 26-da planlaşdırırdı. Lakin “Politico”ya görə, Trampın açıqlamalarından qəzəblənən bəzi qanunvericilər səsvermənin keçirilməsini istəmirlər və bununla da tariflərin ləğvi qərarını dondururlar.

## Vaşinqton güzəştə getsə də...




Ötən il iyulun 27-də ABŞ və Avropa İttifaqı (Aİ) arasında imzalanmış gömrük razılaşdırması sayəsində Avropa məhsullarına tətbiqi nəzərdə tutulan 30 faizlik rüsumdan imtina edilib. Ancaq ABŞ-ın Aİ regionu üzrə məhsullara 15 faizlik rüsumun qüvvədə saxlanıldığını bəyan edilib. Belə ki, iyul razılaşmasına əsasən, ABŞ Avropa məhsullarına 15 faiz gömrük rüsumu tətbiq edib. Bunun müqabilində Avropa İttifaqı Rusiya təbii qazının yerinə ABŞ-dan 750 milyard dollar həcmində alternativ enerji almalı və ABŞ-ın iqtisadiyyatına 600 milyard dollar əlavə investisiya yatırmalıdır. Bundan əlavə, Aİ ABŞ məhsullarına qarşı 93 milyard avroluq qarşılıqlı sanksiyaları ləğv etdi. Bu sanksiyalar avqustun 7-dən etibarən tətbiq olunmalı idi və qarşılıqlı ticarət müharibəsinin əlaməti kimi qəbul edilirdi. Beləliklə, Aİ-nin öz mövqeyindən imtina edib.

ABŞ və Aİ arasında imzalanan gömrük rüsumları üzrə razılaşma ticarətdə gərginliyi azaltmaq və müharibənin qarşısını almaq məqsədi daşısa da, bəzi Aİ ölkələri bu addımı ədalətsiz və qütbləşdirici qarşılayır. Razılaşmanın yarımçıq və qeyri-bərabər tərəflərə üstünlük verən xarakteri Avropa siyasətçiləri arasında geniş müzakirələrə səbəb olub. Bu baxımdan ABŞ-a qarşı cavab addımı atılması qərara alınıb.

## Aİ rüsumlara anoloji cavab verməyi nəzərdən keçirir

Qeyd edilən razılaşmadan bir müddət sonra, ötən ilin oktyabrında ABŞ administrasiyası Avropadan idxal olunan dərman məhsullarına 100 faiz gömrük rüsumları tətbiq edib. Bu, Almaniya və ümumilikdə Avropa üçün ciddi çağırış kimi qiymətləndirilib və yalnız Avropa istehsalçılarının iqtisadi maraqlarına deyil, həm də qlobal səhiyyə sisteminin dayanıqlılığına təhlükə yaradan hal kimi dəyərləndirilib.



Böyük Britaniyanın “Financial Times” qəzeti isə Avropa rəsmilərinə istinadən məlumat yayıb ki, Aİ-nin cavab verməsi üçün ikinci seçim Amerika şirkətlərinin vahid bazara çıxışını məhdudlaşdırmaqdır. Vurğulanıb ki, bu planlar Davosda keçiriləcək Dünya İqtisadi Forumunda Avropa liderləri ilə ABŞ prezidenti Donald Tramp arasında keçiriləcək görüşlərdən əvvəl hazırlanır.

“Əgər bu davam edərsə və Tramp sırf mafiya tipli taktikalara əl atarsa, əlində aydın qisas alətləri var. Eyni zamanda, biz ictimaiyyət qarşısında sakitliyə çağırmaq və ona geri çəkilmək imkanı vermək istəyirik”-, avropalı diplomatlardan biri nəşrə bildirib.

Qəzet vurğulayıb ki, əksər Aİ ölkələri cavab tədbirləri ilə hədələməzdən əvvəl fikir ayrılıqlarını diplomatik yolla həll etmək istəyirlər. Başqa bir avropalı diplomat isə bildirib: “Biz gərginliyi azaltmalıyıq”.

Nəşrin digər bir mənbəyi ümid etdiyini bildirib ki, Avropa Birliyinin cavab tədbirləri görmə ehtimalı Konqres üzvləri tərəfindən Tramp administrasiyasına təzyiqi artıracaq: “Vəziyyət artıq kompromis üçün yer qoymur, çünki biz Qrenlandiyanı təhvil verə bilmərik. Ağıllı amerikalılar da onun Pandoranın qutusunu açdığını bilirlər”, - deyə o vurğulayıb.

*Nardar*

# Avropa ölkələri Qrenlandiyada hərbi mövcudluğunu artırır





*N.BAYRAMLI*

ABŞ Prezidenti Donald Tramp dünyanın ən böyük adası olan Qrenlandiya ilə bağlı mövqeyini dəyişmir. O, bəyan edib ki, Danimarkanın etirazlarına baxmayaraq, ABŞ Qrenlandiyanı əldə etmək niyyətinə sadiqdir. Ağ Evdə isə ABŞ-ın vitse-prezidenti Ceyms Devid Venslə dövlət katibi Marko Rubionun Danimarkanın xarici işlər naziri Lars Lokke Rasmussen və Qrenlandiyanın xarici işlər naziri Vivian Motzfeldtlə görüşü keçirilib. ABŞ-ın adanı əldə etmək niyyəti ilə bağlı keçirilən görüş təxminən 1 saat çəkib.

**"ABŞ-ı inandıra bilmədik"**

ABŞ-da görüşlər keçirən Danimarka və Qrenlandiya XİN başçıları Trampın adaya ABŞ-ın nəzarət etməsi ilə bağlı fikri ilə razılaşmadıqlarını, lakin ortaq məxrəcə gəlməyə hazır olduqlarını bildiriblər. Danimarkanın xarici işlər naziri Lars Lokke Rasmussen deyib ki, Qrenlandiya ətrafındakı hazırda mövcud vəziyyətə baxışlar fərqli olsa da, tərəflər uzunmüddətli perspektivdə ortaq narahatlıqlara malikdir. Onun sözlərinə görə, Qrenlandiyanın gələcəyi ilə bağlı fundamental fikir ayrılığına baxmayaraq, ABŞ ilə dialoqu davam etdirəcəklər. "Biz ortaq yol tapa biləcəyimizi araşdırmaq üçün yüksək səviyyəli işçi qrupu yaratmaq qərarına gəldik. Gözləyirik ki, qrup ilk iclasını bir neçə həftə ərzində keçirəcək. Fikrimizcə, qrup Amerikanın təhlükəsizlik narahatlıqlarını necə həll edəcəyinə diqqət yetirməli, eyni zamanda Danimarka Krallığının qırmızı xətlərinə hörmət etməlidir", - deyə nazir bildirib.

Eyni zamanda, o, qeyd edib ki, Danimarka və Qrenlandiyanın ərazi bütövlüyünün pozulması tamamilə qəbuledilməzdir: "Lakin biz ABŞ-ı Qrenlandiyaya sahib olmaq istəyindən əl çəkməyə inandıra bilmədik. Ada hazırda və yaxın gələcəkdə Danimarka Krallığının tərkibində qalacaq". Rasmussen, həmçinin ABŞ-ın Qrenlandiya yaxınlığında Çin Xalq Respublikasının (ÇXR) hərbi mövcudluğu ilə bağlı iddialarını təkzib edərək dənizdə belə bir halın 10 il əvvəl müşahidə olunduğunu bildirib. O deyib ki, Danimarka və Qrenlandiya ABŞ-ın adanın təhlükəsizliyi ilə bağlı istənilən sorğusuna konstruktiv şəkildə baxmağa hazırdır: "1951-ci il müdafiə müqaviləsinə əsasən, ABŞ-nin artıq Qrenlandiyaya geniş hərbi çıxışı var və onlar hər zaman adadakı mövcudluğunu artırmaq üçün müraciət edə bilərlər. Bu səbəbdən ABŞ-ın hər hansı əlavə sorğusunun olub-olmadığını eşitmək istərdik. Bu baxımdan, biz hər hansı belə bir sorğuya konstruktiv şəkildə baxacağıq".

Xatırladaq ki, Ağ Evin rəhbəri Donald Tramp bir neçə gün öncə istənilən halda Qrenlandiyanı ələ keçirəcəklərini bəyan etmişdi. Hətta ABŞ Nümayəndələr Palatasının üzvü Rendi Fayn Vaşinqtonun Qrenlandiyanı ilhaq etməsinə imkan verən qanun layihəsini təqdim edib. Bu barədə onun rəsmi saytında dərc olunmuş bəyanatda bildirilib. Qanun layihəsi Amerika Prezidentinə "Danimarka Krallığı ilə danışıqlar aparmaq, Qrenlandiyanı ilhaq etmək və ya onu başqa üsullarla ABŞ ərazisi kimi əldə etmək üçün daxil olmaqla zəruri tədbirlər görmək" səlahiyyəti verir. Sənədə əsasən, bundan sonra Qrenlandiyanın ABŞ ərazisi hesab ediləcəyi nəzərdə tutulur. Rendi Faynın sözlərinə görə, qanun layihəsi "Arktikada ABŞ-ın milli maraqlarını qorumaq və Çin və Rusiyadan gələn artan təhdidlərə qarşı durmaq" məqsədi daşıyır.



**Danimarka ordusu ABŞ hərbçilərinə atəş aça bilər**

Bütün bunların fonunda Danimarka Qrenlandiyaya hərbi heyət və texnika göndərərək adada hərbi mövcudluğunu gücləndirir. Əməliyyatda İsveç də iştirak edəcək. İsveç tərəfi Danimarkanın müraciəti əsasında silahsız zabitlərdən ibarət kiçik kontingent göndərir. İsveç Silahlı Qüvvələrindən bildirilib ki, Arktika regionu dünya gücləri arasında artan gərginlik fonunda xüsusi strateji əhəmiyyətə malikdir. Yaxın vaxtlarda regionda aviasiyanın, gəmilərin və hərbi qulluqçuların, o cümlədən NATO üzrə müttəfiq ölkələrin mövcudluğu artırılacaq. İsveçli zabitlər çoxmillətli qrupa daxil olacaqlar. Qrupun vəzifəsi Danimarkanın "Operation Arctic Endurance" adlı hərbi təlimlərinin sonrakı mərhələlərinin hazırlanması olacaq.

Danimarka Müdafiə Nazirliyinin sözçüsü Tobias Roed Yensen isə bildirib ki, ABŞ Qrenlandiyanı zorla ilhaq etməyə cəhd edərsə, Danimarka hərbi qulluqçuları Amerika qoşunlarına cavab atəşi açmalıdırlar. O, Amerikanın "The Intercept" portalına verdiyi şərhdə bildirib: "Danimarka hərbi birləşmələri ölkə ərazisini müdafiə etməyə, o cümlədən onun silahlı hücuma məruz qaldığı təqdirdə dərhal müdafiə tədbirləri görməyə borcludur". Yensen 1952-ci ildən etibarən Qrenlandiya da daxil olmaqla bütün ölkəyə şamil edilən müvafiq Kral fərmanına istinad edib. O qeyd edib ki, fərman Danimarka ordusuna siyasi və ya hərbi liderlərin təlimatlarını gözləmədən hücum halında ölkəni müdafiə etməyə imkan verir. Bu bəyanatdan əvvəl "Danmarks" radiosu Danimarka Müdafiə Nazirliyinin Qrenlandiyaya hərbi texnika və qabaqcıl dəstə göndərdiyini bildirib.

**Almaniya və Britaniyadan Danimarkaya növbəti dəstək**

Yeri gəlmişkən, Danimarkanın digər Avropa tərəfdaşları da ona hərbi dəstək göstərməyi nəzərdə tutur. Artıq bir sıra ölkələr Qrenlandiyaya kiçik hərbi qruplar göndəriblər. Bu addımlar Danimarkanın NATO-dakı avropalı tərəfdaşlarına çağırışlarından sonra atılıb. Əməliyyat Danimarka tərəfindən koordinasiya ediləcək, ABŞ-ın rəhbərliyi altındakı NATO strukturları vasitəsilə aparılmayacaq.

Kanada da ABŞ Prezidenti Donald Trampın təhdidləri fonunda Qrenlandiyada keçiriləcək hərbi təlimlərdə iştirak etməyi və adaya kiçik hərbi qrup göndərməyi planlaşdırır. "The Globe and Mail" qəzeti bu barədə mənbələrinə istinadla məlumat yayıb. Bu məlumata görə, Kanada ordusu hazırda Baş nazir Mark Karninin siyasi qərarını gözləyir və bu qərar tezliklə verilə bilər.

Yaranmış vəziyyətlə əlaqədar NATO-nun Baş katibi Mark Rutte ABŞ lideri ilə telefonla danışıb. Alyansın lideri müzakirənin Qrenlandiya və Arktikada təhlükəsizliklə bağlı olduğunu bəyan edib: "Biz bu məsələ üzərində işləməyə davam edəcəyik və bu həftənin sonunda Davosda onunla görüşməyi səbirsizliklə gözləyirəm".

Böyük Britaniyanın Baş naziri Kir Starmer isə Danimarkanın Baş naziri, Avropa Komissiyasının və NATO-nun rəhbərləri ilə telefon danışığı aparıb. Daha sonra o, ABŞ Prezidenti Donald Tramp ilə də əlaqə saxlayıb. Baş nazir bütün telefon danışığı zamanı Qrenlandiya ilə bağlı Böyük Britaniyanın mövqeyini bir daha vurğulayıb. Bildirilib ki, "Yüksək Şimal"ın təhlükəsizliyi Avro-Atlantik maraqların qorunması baxımından bütün NATO müttəfiqləri üçün prioritet hesab olunur. Kir Starmer, həmçinin qeyd edib ki, NATO müttəfiqlərinin kollektiv təhlükəsizliyi naminə atılan addımlara görə müttəfiqlərə qarşı tariflərin tətbiqi yanlış yanaşmadır.

Almaniya Kansleri Fridrix Merts də "X" platformasında bəyan edib ki, Danimarka və Qrenlandiya xalqı ilə tam həmrəylik və koordinasiya içindəyik. Kansler qeyd edib: "NATO üzvü olaraq Arktika regionunda təhlükəsizliyin gücləndirilməsini ümumi transatlantik maraq kimi qiymətləndirir və bu istiqamətdə qəti öhdəlik daşıyırıq".

# "SpaceX" yeni "Starlink" peyklərini orbitə çıxarıb



"SpaceX" "Starlink" qlobal internet şəbəkəsi üçün nəzərdə tutulan 29 ədəd minipeyki orbitə çıxarıb. "SpaceX" şirkətinin məlumatına görə, "Falcon 9" daşıyıcı raketi bazar günü ABŞ-ın Şərq sahili vaxtı ilə saat 18:31-də Birləşmiş Ştatların Kosmik Qüvvələrinin Florida ştatındakı Kanaveral burnunda yerləşən 40 nömrəli Buraxılış Kompleksindən start götürüb.

Qeyd edək ki, "SpaceX" 2019-cu ilin mayından bəri kosmik fəzaya ümumilikdə 10,9 mindən çox peyk buraxıb. Hazırda onların 9,5 mindən çoxu işlək vəziyyətdədir. Dünyanın ən böyük peyk operatoru olan "SpaceX" orbitə ümumilikdə 12 minə yaxın minipeyk çıxarmağı hədəfləyir. Təxminən 10 milyard dollara başa gələcək layihə planetin istənilən guşəsində genişzolaqlı internetə çıxışı təmin etməyə imkan yaradacaq. Şirkət növbəti mərhələdə orbital qruplaşmadakı kosmik aparatların sayını 34 minə çatdırmağı planlaşdırır.

Hazırda "Starlink" peyk şəbəkəsi dünyanın 40-dan çox ölkəsində, o cümlədən Şimali Amerika, Avropa, Uzaq Şərq və Avstraliyada istifadəçilər üçün əlçatandır. Pentaqonun məlumatına əsasən, həmin peyklərin xidmətindən amerikalı hərbçilər də istifadə edirlər.

# Almaniya ABŞ hərbi bazalarının icarə haqqını artıra bilər



Almaniya ABŞ-ın tətbiq etdiyi tariflərə cavab olaraq ölkə ərazisində yerləşən Amerika hərbi bazalarından istifadə üçün icarə haqqını əhəmiyyətli dərəcədə artırmağı nəzərdən keçirir. Bu barədə Britaniyanın "The Times" qəzeti Berlindəki mənbəyə istinadla məlumat yayıb. Məlumata görə, Almaniyadakı Amerika hərbi bazalarının bağlanması variantı nəzərdən keçirilmir. ABŞ Prezidenti Donald Tramp yanvarın 17-də elan edib ki, Birləşmiş Krallıq, Almaniya, Danimarka, Niderland, Norveç, Finlandiya, Fransa və İsveçə 10 faiz tarif tətbiq ediləcək, 1 iyunda isə tarif 25 faizə qədər artırılacaq.

# Tənhalıqdan qurtuluş

## Orxan Pamukun "Qara kitab" romanı haqqında

əvvəli ötən sayımızda

Əslində, Qalibin soraqladığı Röyadan çox Cəlaldır, ona elə gəlir ki, Cəlalın sirrinə varsa, Röyanı da tapacaq, çünki Cəlal haradadırsa, Röya da mütləq oradadır. Başqa sözlə, hədəf Cəlalın kimliyinə bürünüb Cəlala çevrilmək, dünyaya Cəlal Salikin gözüylə baxmaqdır; Röya isə, adından (yuxu, arzu, xəyal) göründüyü kimi, bu yolda onun ilham pərisidir.

***

Əsərdə həm detektiv, fantastik, həm məhəbbət, həm tarixi-fəlsəfi, həm də sosial-siyasi roman elementlərinə bolluca rast gəlinsə də, zənnimcə, "Qara kitab" ilk növbədə səyahət, macəra romanı qəlibində yazılıb. Bunu deyəndə yalnız İstanbulun bugününə, keçmişinə səyahəti nəzərdə tutmuram - bunlar məsələnin görünən tərəfidir; söhbət Qalibin əvvəlcə öz ömrünə, oradan yola çıxmaqla Cəlalın həyatına səyahətindən, o səyahətdə başına gələn macəralardan gedir. Qalib öz səfərində gerçək İstanbuldan çox xəyalındakı sirli-sehirli, bir az sevimli, bir az qorxulu, bir az fantastik, bir az melanxolik İstanbulun küçələrini dolaşır. Bu səyahətdə ona Cəlalın yazıları bələdçilik eləyir. Qalib İstanbulun dərinliklərinə daldıqca Cəlalın da ömrünün içərilərinə doğru irəliləyir, İstanbula səyahətlə Cəlalın ömrünə səyahət sinxron qaydada baş verir.

İstanbul bu romanda sadəcə məkan, yalnızca fon deyil; İstanbul "Qara kitab"ın əsas qəhrəmanlarından biri, bəlkə də birincisidir. Şərqlə Qərbin qovuşuğunda yerləşən qədim, möhtəşəm şəhər bu kitabda canlı orqanizm kimi nəfəs alır, işarələrlə danışır, xəyala dalır, düşünür, xatırlayır. Qalibin gözüylə baxsaq, qəhrəmanların uşaqlığının keçdiyi Şəhriqəlb apartmanı deyilən nəsil evi - İstanbulun beşiyi, ayrı-ayrı zamanlardan, cürbəcür dəblərdən xatirə qalmış məişət əşyalarının bir-birinə qarışıb dolaşdığı Ələddinin dükanı - şəhərin qara (yaddaş) qutusu, Bədii Ustanın manekenlərini saxladığı zirzəmi, yaxud dərdli ziyarətçilərin öz sevgi qəziyyələrini söylədiyi gecə pavilyonu - şəhərin qaynar gündüz həyatından, işıqlı, aydın rasional zonasından sıxışdırılıb çıxarılmış şüuraltısı, Bosfor boğazının dibi isə İstanbul adlı mürəkkəb orqanizmin heç bir ağıla, məntiqə tabe olmayan şüursuzluq zonası, minillik cəhənnəmidir. Yazıçı personajının gözüylə İstanbulu qədim əlyazmasıtək, sirli kitabtək oxuyur, şəhəri gizli mətn kimi qat-qat açıb sətir-sətir çözür. Orxan Pamuk yaradıcılığına dərindən bələd olan şair-ədəbiyyatşünas Qismət Rüstəmov "Qara kitab" haqqında danışdığı müsahibəsində bu məsələlərə belə aydınlıq gətirir: "Pamukun əsərində Qalibdən daha çox əsas obraz İstanbuldur, çünki biz romanda Qalibdən də çox İstanbulun müxtəlif hallarıyla tanış oluruq, bütün roman boyu adamların ruhi vəziyyətini, qərarlarını İstanbul müəyyənləşdirir... Bədii Ustanın düzəltdiyi manekenləri görmək üçün yer altına enmək - cəhənnəmin, Süleymaniyyə məscidinin minarəsinə qalxmaq - cənnətin analogiyasıdır".

Romanın "Boğazın suları çəkildiyi zaman" adlı ikinci fəslində (Cəlal Salikin köşə yazısında) Bosforun suyunun quruması, yerində nəhəng bir çuxurun qalması kimi fantastik mənzərə təsvir olunur. O çuxur İstanbul tarixinin cəhənnəmi, sivilizasiyanın batırdığı qaranlıq yaddaşdır. Boğazın suyu çəkiləndə təhtəlşüurun o nəhəng saxlancından həm Bizans epoxasına, həm Osmanlı dövrünə, həm də cümhuriyyət tarixinə dair cürbəcür artefaktlar, əşyayi-dəlillər üzə çıxır, şəhərin gizli tarixi faş olur, bir-birinə sarmaşıb-dolaşıb yaşını, sayğınlığını itirmiş cinayətkar zamanların, arsız, günahkar əməllərin üstü açılır. O zamansız, dibsiz təhtəlşüurda Bizans-Osmanlı savaşı, xanədanlıq-cümhuriyyət qovğası yoxdur, bunlar sivil, mədəni dünyaya aid fərqlərdir. Həm də təkcə fərqlər yox, sivilizasiyanı mərhələdən-mərhələyə adladan alabəzək örtüklər, millətləri, adətləri, inancları bir araya gətirən mədəniyyət qovşaqlarıdır.

***

Eynən İstanbulun özü kimi "Qara kitab" da Şərqlə Qərbin kəsişdiyi, qovuşduğu məqamda qərar tutub. Romanda həm Şərq, həm də Qərb ədəbiyyatına, incəsənətinə, tarixinə saysız-hesabsız göndərmə, istinad var. Əsər özünəməxsus bir mədəniyyət ensiklopediyasıdır, bu kitabı oxuyub anlamaq üçün çoxlu müəllifdən, çoxlu da kitabdan xəbərdar olmalısan. Romanın Şərq qaynaqları arasında ən çox Fəridəddin Əttar, Mövlana Cəlaləddin Rumi, Şeyx Qalib, eləcə də Fəzlullah Nəiminin, İmadəddin Nəsiminin timsalında hürufilik təriqətinin, Qərb qaynaqları arasında Aligyeri Dante, Edqar Po, Fyodor Dostoyevski, Marsel Prust, Ceyms Coys, Xorxe Borxesin adı çəkilir, ayrı-ayrı məqamlar, epizodlar bu klassiklərin yaradıcılığıyla dialoq, yaxud da onlardan təsirlənmək kimi yozulur.

Zatən Orxan Pamukun ən böyük ustalığı da elə bu cür unikal calağa, sintezə nail olmasındadır, yoxsa onun romanlarının nə dili, nə üslubu, nə də forması Avropanı təəccübləndirə bilərdi - qoca qitə ona qədər belə yaradıcı hoqqaları çox görmüşdü. Pamukun dünya miqyasında uğur qazanmasının başlıca sirri onun Şərq-müsəlman mistik poeziyasının, klassik sufi ədəbiyyatının fəlsəfi məzmununu modern Qərb romanının qiyafəsinə büküb Şərqlə Qərbin misilsiz bir calağını yarada bilməsindədir - eynən İstanbulun özü misalı "Qara kitab" da xristian sivilizasiyasıyla müsəlman sivilizasiyasının sintezindən yaranmış möhtəşəm mədəniyyət abidəsidir.

Qərb ədəbiyyatının damarına Şərq kodları yeritmək kimi bir incəsənət proseduru ilk dəfə yerinə yetirilməsə də, Pamukun bəxti bir də onda gətirdi ki, onun apardığı əməliyyat Avropa romançılığının ideya-məzmun sarıdan qıtlıq çəkdiyi, mənəvi-ruhani böhran keçirdiyi bir çağa düşdü. Acgöz burjua mühitində saxta etiketlərlə, riyakar kübar qaydalarla, snobizm ədalarıyla tərbiyələnmiş insanlara klassik eşq düsturu, qədim məhəbbət formulu əsasında hazırlanmış sevgi iksirinin, ilahi meyin resepti, əlbəttə, maraqlı gəldi - şair demiş, insan hər yerdə insandır, bu səbəbdən də hər yerdə, hər zaman saf ünsiyyətə, təmənnasız dostluğa, fədakar eşqə susaya bilər.

Orxan Pamuk bu boşluğu vaxtında duydu, çünki özü də ilk növbədə Avropa adamıydı, Qərb mədəniyyətinin təsiri altında böyümüşdü, Şərq mədəniyyətinə də elə Qərbdən baxırdı. Sufi ədəbiyyatını nisbətən gec kəşf eləmişdi, bir müsahibəsində boynuna alırdı ki, Mövlananın "Məsnəvi"sindəki pritçalar oxuyanda çox təəccüblənib: bu pritçalar necə də Borxesin hekayələrinə bənzəyirmiş! Halbuki Şərq adamı ayrı cür deyərdi; Şərq adamı Borxesin pritçalarını oxuyanda təəccüblənərdi ki, bunlar necə də sufilərin hekayətlərinə bənzəyir.

davamı növbəti sayımızda



*F.UĞURLU*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# “Azərbaycan Mədəniyyəti - 2040”

## Mədəniyyətimizin gələcəyini müəyyən edən strateji yol xəritəsi...



*Yeganə BAYRAMOVA*

Məlum olduğu kimi, bu günlərdə Prezident İlham Əliyev “Azərbaycan Mədəniyyəti - 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sənəd ölkənin mədəni inkişaf tarixində mühüm mərhələdir. Konsepsiya təkcə mədəniyyət sahəsinin uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirmir, eyni zamanda milli kimliyin qorunması, qloballaşma şəraitində Azərbaycan mədəniyyətinin rəqabətqabiliyyətinin artırılması və gələcək nəsillərə ötürülməsi baxımından fundamental əhəmiyyət daşıyır.

Konsepsiyada mədəniyyətin yalnız estetik və mənəvi dəyər kimi deyil, həm də sosial-iqtisadi inkişafın mühüm komponenti kimi nəzərdən keçirilməsi xüsusi diqqət çəkir. Bu yanaşma mədəniyyətin məşğulluq, turizm, kreativ iqtisadiyyat və ölkənin beynəlxalq imici ilə birbaşa əlaqələndirildiyini göstərir.

**Azərbaycan dili ilə bağlı çağırışlar da yer alıb**

Konsepsiyada Azərbaycan dilinin mədəniyyətdəki rolunun gücləndirilməsinə, onun mahiyyətcə inkişafına, həmçinin beynəlxalq səviyyədə təbliğinə və təşviqinə ehtiyac olduğu diqqətə çatdırılır. Bu istiqamətdə görüləcək tədbirlərə Azərbaycan dilinin rolunun artırılması məqsədilə sistemli fəaliyyətin həyata keçirilməsi, Azərbaycan dilinin inkişafı, təbliği və təşviqi ilə bağlı fəaliyyətin gücləndirilməsi kimi məsələlər daxildir. Qeyd edilir ki, görülən işlər nəticəsində Azərbaycan ədəbi dili inkişaf edəcək, ana dilində yeni əsərlər yaradılacaq və Azərbaycan dilindən rəqəmsal platformalarda daha geniş istifadə olunacaq.

Konsepsiyada Azərbaycan dilinin inkişafı, o cümlədən beynəlxalq aləmdə təbliği və təşviqi ilə bağlı əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi, ana dilində elmi, elmi-publisistik və bədii əsərlərin sayının və keyfiyyətinin artırılması, Azərbaycan dilinin yayılma coğrafiyasının genişləndirilməsi və beynəlxalq ünsiyyətdəki rolunun artırılması məqsədilə tədbirlərin görülməsi də öz əksini tapıb.



**Mədəni təhsilin gücləndirilməsi**

Sözügedən sənəd barədə “Yeni Azərbaycan”a açıqlama verən mədəniyyətşünas-alim Timuçin Əfəndiyev bildirib ki, “Azərbaycan Mədəniyyəti - 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkəmizin mədəni siyasətinin gələcək onilliklər üzrə strateji istiqamətlərini müəyyənləşdirən mühüm sənəddir: “Konsepsiya milli-mədəni irsimizin qorunması və yaşadılması ilə yanaşı, mədəniyyət və incəsənət sahəsinin müasir çağırışlara uyğun şəkildə inkişafını təmin etməyə xidmət edir. Sənəddə mədəniyyətin cəmiyyətin inkişafında aparıcı rolunun xüsusi vurğulanması, yaradıcı potensialın üzə çıxarılması, innovativ yanaşmaların təşviqi və mədəni təhsilin gücləndirilməsi məsələlərinin ön plana çəkilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan “Azərbaycan Mədəniyyəti - 2040” Konsepsiyası yalnız bu günü deyil, gələcək nəsillərin mədəni düşüncə və estetik zövqünün formalaşmasını da hədəfləyən uzaqgörən bir baxışın ifadəsidir”.

**Milli mədəniyyətimizin beynəlxalq miqyasda təbliği üçün...**

Mədəniyyətşünas qeyd edib ki, konsepsiyanın hazırlanması prosesində Mədəniyyət Nazirliyi tərəfindən mədəniyyət və incəsənət xadimləri, ali təhsil müəssisələrinin nümayəndələri, yaradıcı şəxslərlə keçirilən çoxsaylı görüşlər, forumlar və geniş müzakirələr sənədin əhatəli, praktik və real ehtiyaclara uyğun məzmunda formalaşmasına mühüm töhfə verib: “Bu yanaşma mədəniyyət sahəsində açıq dialoqun, yaradıcı mühitlə dövlət strukturları arasında səmərəli əməkdaşlığın bariz nümunəsidir. Bu mühüm strateji sənədin mədəniyyət və incəsənət təhsilinin keyfiyyətinin yüksəldilməsinə, yaradıcı gənclərin yetişdirilməsinə, milli mədəniyyətimizin beynəlxalq miqyasda daha geniş təbliğinə ciddi töhfələr verəcəyinə inanırıq. Əminik ki, “Azərbaycan Mədəniyyəti - 2040” Konsepsiyasının ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi ölkəmizin mədəni həyatında yeni bir inkişaf mərhələsinin başlanğıcı olacaq”.

Mədəniyyət sahəsi üzrə mütəxəssislərin də vurğuladığı kimi, konsepsiya Azərbaycan mədəniyyətinə yalnız dövlət səviyyəsində qayğı kimi baxılmasını deyil, həm də milli dəyərlərin inkişaf etdirilməsi, mühafizəsi və gələcək nəsillərə ötürülməsi üçün konkret mexanizmlər gətirir. Sənədin həyata keçirilməsi milli mədəniyyətimizin yüksəlişinə və dünya mədəni mühitində layiqli rol almasına xidmət edəcək.

# Qışın səssiz “hücumu”

## Quruyan dəri, çatlayan dodaqlar...

*Yeganə BAYRAMOVA*

**Düzgün qulluq necə olmalıdır?**

Adətən soyuq havalarda ilk zərbəni dodaqlarımız və üz dərimiz alır. Külək, şaxta, aşağı rütubət - bunların hamısı birlikdə dərinin təbii müdafiə mexanizmini zəiflədir. Nəticədə üz dərisində və dodaqlarda quruluq, dartınma hissi, çatlama və qabıqlanma olur.

**Niyə məhz soyuqda belə olur?**

Soyuq havalarda dəri daha az yağ ifraz edir. Üstəlik, isti otaqlardakı quru hava dəridəki nəmi sözün əsl mənasında “oğurlayır”. Dodaqlarda isə vəziyyət daha kritikdir: onların üzərində qoruyucu yağ təbəqəsi demək olar ki, yoxdur. Ona görə də dodaqlar tez quruyur və çatlayır.



**Ən böyük səhvlərdən biri...**

Dodaqlar quruyanda onları tez-tez yalamaq olmaz. İlk anda rahatladıcı hiss yaratsa da, əslində bu, vəziyyəti daha da pisləşdirir - tüpürcək buxarlanır və dodaqları daha da susuz qoyur.

**Soyuq havada üz dərisinə qulluq necə olmalıdır?**

Əgər isti havada tez-tez nəmləndirici kremlərdən istifadə edirdiksə, soyuq havada əsas rolu qidalandırıcı kremlər oynayır. Qədim zamanlarda soyuq havada dərini qorumaq üçün qadınlar qaz piyindən istifadə edirdilər.

- Qidalandırıcı kremləri dəriyə evdən çıxdıqdan ən azı 1 saat əvvəl çəkmək lazımdır. Əks halda dəri daha da quruyacaq. 20 dəqiqədən sonra kremin qalıqlarını salfetlə silin.

- Qışda toz şəklində olan pudralardan istifadə etməyin, krem-pudralardan və tonal kremlərdən istifadə edin. Toz şəklində olan pudra dərini qurudur.

- Qışda dodaqların dərisi də əziyyət çəkir - quruyur, çatlayır. Bu səbəbdən çölə çıxdıqdan əvvəl dodaqlarınıza yağlı pomada çəkin.

- Qışda skrablardan və pilinglərdən daha az istifadə edin. Dəriniz yağlıdırsa həftədə 1 dəfə, qurudursa 2 həftədən bir skrab istifadə edin. Soyuq fəsillərdə dərini mümkün qədər qorumaq lazımdır.

- Qışda dərinin vəziyyətinə həm soyuq hava, həm də istilətmə sistemləri mənfi təsir edir. Kondisionerlər, sobalar evin havasını qurudur və bu da ilk növbədə dəriyə mənfi təsir edir. Bu vəziyyətdə daha çox maye qəbul etməyə və evin havasını nəmləndirməyə çalışın.

- Dəriniz çox qurudursa, üzünüzü su ilə yumayın. Xüsusi kosmetik süddən istifadə edin.

- Həftədə 2 dəfə qidalandırıcı maskalar edin.

**Dodaqlar üçün bu yağlara üstünlük verilməlidir**

Qışda dodaqların hər zaman nəmli qalması və təbii parlaqlığını qoruyub saxlaması üçün onlara da mütəmadi olaraq qulluq etmək lazımdır.

**Dodaq pilinqi edin**

Dodaqlarınızın teksturasını yeniləmək və möhtəşəm görünüşünü qorumaq üçün mütəmadi olaraq pilinq tətbiq etməlisiniz. Bunun üçün 1 çay qaşığı qəhvə və zeytun yağını qarışdırın. Bu qarışımla dodaqlarınızı 1-2 dəqiqə ərzində pilinq edin. Sonra yuyun və nəmləndirici krem çəkin.

**Təbii yağlarla qulluq edin**

Dodaqlarınıza qulluq edərkən təbii yağlardan da istifadə edə bilərsiniz. Təbii yağlar soyuq havalarda dodaqlarınızın qurumasının qarşısını alır. Dodaqları nəmləndirir və yumşaldır. Qurutma nəticəsində yaranan qıcıqlanmanın qarşısını alır.

Dodaqlarınız üçün istifadə edə biləcəyiniz təbii yağlar bunlardır;

Zeytun yağı - dodaqları nəm saxlayır.

Üzüm çəyirdəyi yağı - dodaqların quruması nəticəsində yaranan yaralar və qıcıqlanmalar üçün mükəmməldir.

Ərik yağı - bol E və C vitamini ehtiva edən ərik yağı dodaqları qidalandırır və hamar edir.

**Dodaqlarınızı hər gün nəmləndirin**

Dərinin həmişə nəmə ehtiyacı var. Çünki dəri asanlıqla quruyur və soyulur. Dodaqlarınız da nəmsiz qaldıqda çox quruyur.

Nəmsiz qalan dodaqlar xüsusilə qış aylarında çox tez çatlayır və zədələnir.

Dodaqlardakı dəri toxuması son dərəcə həssas olduğu üçün bu nahiyənin hər zaman nəmli qalması lazımdır.

Dodaqlarınızı nəmləndirmək üçün dodaq baxımı kremlərindən istifadə edə bilərsiniz. Bu kremləri gün ərzində müəyyən fasilələrlə dodaqlarınıza sürtmək lazımdır.

**Dodaq maskası edin**

Dodaqlarınızı hər gün nəmləndirdiyinizə baxmayaraq hələ də quruluq problemi ilə qarşılaşırsınızsa, həftədə bir dəfə sıx nəmləndirici maska tətbiq edə bilərsiniz.

Nəmləndirici gücləndirən və dodaq sağlamlığını qoruyan bu maskanı evdə asanlıqla edə bilərsiniz.

Həftədə bir dəfə dodaqlarınıza 1 çay qaşığı balı çəkin və 5 dəqiqə saxlayın. Dodaqlarınızın nəmləndiyini və parıldadığını görəcəksiniz.

*İdman*

# Seneqal Afrika Millətlər Kubokunun qalibi olub

Futbol üzrə Afrika Millətlər Kubokunun qalibi bəlli olub. Finalda Seneqal ilə ev sahibi Mərakeş üz-üzə gəlib. Görüşün əsas vaxtı qolsuz heç-heçə ilə yekunlaşıb və əlavə 30 dəqiqə oynanılıb. Bu hissənin 94-cü dəqiqəsində qol vuran Seneqal turnirin qalibi olub. Misir kollektivini penaltilər seriyasında məğlub edən Nigeriya millisi isə üçüncü yerlə kifayətlənib.



# Qılıncoynadanlarımız Türkiyədə 2 bürünc medal qazanıblar



Azərbaycan qılıncoynadanları Türkiyənin paytaxtı Ankarada keçirilən açıq turnirdə iki bürünc medal qazanıblar. Maqsud Hüseynli böyüklər, Fərəh Abasova isə gənclər arasında sablya növündə mükafatçılar sırasına düşüblər. Kişi sablyaçılardan Rəsul Əliyev 60 iştirakçı arasında 7-ci, Timur Husnaddinov 12-ci, Nahid Məmmədli isə 22-ci olub. Qızların yarışında medalın bir addımlığında mübarizəni dayandıran Valentina Zeynalova 5-ci, Leyla Əhmədova 11-ci, Ayan Ağasıyeva 13-cü, Züleyxa Sultanlı 20-ci, Cahan Sadıxova 24-cü, İrina Lobas isə 27-ci olub.

# “Real Sosyedad” 10 nəfərlə “Barselona”nı məğlub edib

İspaniya La Liqasında XXI turun oyunları keçirilib. Çempionluq mübarizəsi aparan “Barselona” səfərdə “Real Sosyedad” ilə qarşılaşıb. Görüş ev sahibi komandanın 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Karlos Soler 88-ci dəqiqədə qırmızı vərəqə görüb və “Real Sosyedad”ı azlıqda qoyub. “Barselona” 49 xalla turnir cədvəlinə başçılıq edir. Meydan sahibləri isə 24 xalla 8-ci pillədədir.



# Lebron Ceyms NBA-da unikal göstəriciyə imza atıb




“Los-Anceles Leykers” klubunun ulduz oyunçusu Lebron Ceyms Milli Basketbol Assosiasiyası (NBA) tarixində unikal göstəriciyə imza atıb. O, üç fərqli komanda üzərində ən azı 60 qələbə qazanmaqla yanaşı, bu oyunlarda qalibiyyət faizini 64 faizdən aşağı salmayıb. 41 yaşlı oyunçu bunu reallaşdıran yeganə basketbolçu olub. Təcrübəli hücumçu “İndiana Peysers”ə qarşı oyunların 64 faizində qalib gələrək 63, “Atlanta Hoks” üzərində 76 faizlə 60, “Toronto Reptors”la qarşılaşmalarda isə 77 faiz göstərici ilə 60 qələbə əldə edib. Lebron Ceyms bu göstəriciyə komandasının “Toronto Reptors” üzərində 110:93 hesablı qələbə qazandığı oyunda nail olub.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4535**
**Sifariş: 97**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova